**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏDƏNİYYƏTDƏ QADIN PROBLEMİ: TƏDQİQATLARIN İSTİQAMƏTİ VƏ PROBLEMATİKASI

| | | |
|---|---|---|
| İxtisas: | 6219.01 | Kulturologiya və onun ümumi məsələləri |
| Elm sahəsi: | | Sənətşünaslıq |


İddiaçı: **Sədaqət Ağasəfər qızı Əliyeva**


Elmlər doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial-mədəni fəaliyyət kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi | Filologiya elmləri doktoru, professor<br>**Timuçin İlyas oğlu Əfəndiyev** |
| Rəsmi opponentlər | Kulturologiya elmləri doktoru, professor<br>**Çingiz Əli oğlu Abdullayev** |
| | Tarix elmləri doktoru, professor<br>**Fuad Teyyub oğlu Məmmədov** |
| | Sənətşünaslıq elmləri doktoru, dosent<br>**Vəfa Xanoğlan oğlu Əliyev** |
| | Kulturologiya elmləri doktoru, dosent<br>**Natalya Vladimirovna Sinyavina** |

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya şurasının bazasında qeydiyyat nömrəsi BED 2.35 Birdəfəlik dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | sənətşünaslıq doktoru, professor<br>**Məryam Əli qızı Əli-zadə** |
| Dissertasiya şurasının elmi katibi: | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Gülnarə Kərim qızı Hüseynova** |
| Elmi seminarın sədri: | Kulturologiya elmləri doktoru, dosent<br>**İlqar Həsrət oğlu Hüseynov** |

## I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan kulturologiyasında ümumbəşəri mədəniyyətin və onun tərkib hissəsi olan milli mədəniyyətimizin ənənəvi təsəvvürlərin sərhədlərini aşan nəzəri paradiqmalar və modellər əsasında öyrənilməsi, habelə problemlərin çeşidliliyi və məna rəngarəngliyi baxımından yeni biliklər təmsil edən tədqiqatların kasadlığı mövcuddur. Əlbəttə, məzmun, üslub və metodoloji aparatına görə bir-birinin "surəti", təkrarı olan tədqiqatların sayı xeyli artmışdır. Diqqəti çəkən məqamdır ki, bir qayda olaraq, mədəniyyətdə ənənə və novatorluq mövzusu çərçivəsində onun funksiyaları haqqında yazmağa üstünlük verilir. Son illərdə isə həmçinin qloballaşmanın vəsfi, və ya təhlükəsi ilə bağlı mövzulara müraciət bir dəb halına gəlməkdədir. Eyni zamanda vurğulanmalıdır ki, gender terminologiyası və onun problematikası son iyirmi ildə Azərbaycan kulturologiyasına yeni ritorik məzmun gətirmişdir. Milli mədəniyyətşünaslığımız Qərb və rus kulturologiyasının təsirinə məruz qalsa da, əksər tədqiqatçılar hələ də paradoksları həll etmək, qeyri-müəyyən faktları üzə çıxarmaq və Azərbaycanın etnoqrafik və tarixi hadisələrini XX əsrin müxtəlif nəzəriyyələrinə uyğun izah etməkdən uzaqdır. Hətta mədəniyyətə gender münasibətləri prizmasından yanaşan əsərlərdə belə nədənsə çox az hallarda yeni informasiya və fikirlərə rast gəlinir. Beləliklə, xüsusən də müstəqillik dönəmində kifayət qədər kulturoloji tədqiqatlar meydana çıxsa da, bu kəmiyyət çoxluğu, təəssüf ki, əhəmiyyətli dərəcədə mühakimə yeniliyinin azlığı və elmi qənaətlərin keyfiyyətinin zəifliyi ilə müşayiət olunur. Özü də müasir medianın, sosio-humanitar elmlərin və fəlsəfənin kulturologiyaya olan böyük marağı və diqqəti ilə sözügedən elm sahəsinin faktiki durğun vəziyyəti bir növ dissonans yaradır. Kulturologiyanı təmsil edən mütəxəssislərin mətbuatda, radio və televiziyalarda maraq doğurmayan, elmi cəhətdən tutarsız "ekspert" rəyləri də bu sahədə mövcud koqnitiv boşluğu əks etdirir.

Mövzumuzun bir başqa tədqiqat istiqaməti isə qadın problemlərinə həsr edilmişdir. Bununla əlaqədar da vurğulamalıyıq ki, Azərbaycanda qadın problemlərinin araşdırılması mədəniyyətin

tədqiqi qədər intensivdir. Ancaq təəssüf ki, Qərb dünyasında aparılan tədqiqatlarla müqayisədə Azərbaycanda bu istiqamətdə aparılan araşdırmalarda yeni ideyaların, yeni baxışların, və bunların nəticəsi olaraq yeni biliklərin ortaya qoyulması hələ ki ciddi şəkildə nəzərə çarpmır.

Eyni acınacaqlı durumu biz gender mövzusu üzrə tədqiqatlarda da müşahidə etməkdəyik. Bu yeni cərəyan Azərbaycanda fəlsəfə, mədəniyyətşünaslıq və humanitar elmlərə daxil olan müxtəlif fənlər üzrə yeni perspektivlər açmaq və yeni paradiqmaları aktuallaşdırmaq məqsədi ilə Qərbdən bir növ "ixrac" edilmişdir. Son 30 ildə sosioloji və kulturoloji elmlər kontekstində Azərbaycan ictimai və elmi diskursuna daxil olan, əhəmiyyətli dərəcədə fənlərarası səciyyə kəsb edən genderşünaslığın tədris proqramlarına salınması onun sürətlə populyarlaşmasından xəbər verir. Ancaq təəssüf ki, qadın-kişi münasibətlərinin müxtəlif qeyri-bioloji (sosial) aspektlərinin araşdırılmasına yönəlmiş genderşünaslıq ölkəmizdə xeyli triviallaşmağa məruz qaldı. Başqa sözlə, ölkəmizdə bu mövzuda meydana çıxan çoxsaylı əsərlərin əksəriyyəti ənənəvi üslubda qələmə alınmaqla, yeni paradiqmalara ya tam etinasızlıq göstərir, ya da genderşünaslıq məcrasında irəli sürülən nəzəri bilikləri mexaniki şəkildə mənimsəməklə, epistemoloji önəmi son dərəcə aşağı olan, yeni qənaətləri içərisinə almayan epiqonçu səpkili araşdırmaları təmsil edir. Bu səbəbdən Azərbaycan genderşünaslığının çoxsaylı problematikasının yeni nəzəri yanaşmalara əsasən araşdırılmasına, bu əsnada evristik cəhətdən yüksək verimli əsərlərin ərsəyə gəlməsinə ciddi tələbat vardır. Hər hansı bir elm sahəsində mütəmadi olaraq baş verən və Tomas Kun tərəfindən paradiqma adını alan inqilabi dəyişikliklər həmin elmdə yeni ideya və yanaşmalara yol açır. Bu baxımdan yeni kulturoloji paradiqmaların mənimsənilməsi və onların çərçivəsində aktuallaşan konseptual ideyaların Azərbaycan ictimai-mədəni hadisə və proseslərinin öyrənilməsinə tətbiqi Vətən kulturologiyası qarşısında duran fundamental vəzifələrdən biridir. Bu baxımdan mədəniyyətşünaslıqla sosiologiyann qovşağında meydana gələn gender kulturologiyası kontekstində tədqiqatların aparılması xüsusi önəm kəsb edir.

Qeyd etməliyik ki, istənilən elm mütəmadi olaraq böhran halları ilə qarşılaşır; bu, koqnitiv baxımdan köhnəlmiş və əvvəlki epistemoloji səmərəliliyini önəmli dərəcədə itirmiş paradiqmanın bir yenisi ilə əvəzlənməsi prosesi ilə, yaxud da sözügedən paradiqmanın öz məcrasında koqnitiv və idraki cəbbəxananın zənginləşməsi ilə müşayiət olunur. Dünya səviyyəsində kulturologiya elmində (və ya sosial antropologiyada) böhrandan çıxış bir tərəfdən Şərq və Afrika mədəniyyətləri üzrə yeni paradiqmalara söykənən yeni konsepsiyaların ərsəyə gətirilməyidirsə, digər tərəfdən sadalanan mədəniyyətlərin materiallarının yeni şərhləri, interpretasiyalarıdır.

Bu vəziyyətdə hesab edirik ki, mədəniyyətdə qadın fenomeninə müxtəlif mənalar, situasiyalar "təhrik edən" başlanğıc kimi yanaşanda, kulturologiyanı epistemoloji cəhətdən yeniliklərlə xeyli zənginləşdirmək, onun elmi semantikasını əhəmiyyətli dərəcədə genişləndirmək mümkündür. Belə bir hal da unudulmamalıdır ki, Azərbaycan mədəniyyətşünaslığı hələ də qadın dünyası ilə müəyyənləşən problematikadan "tektonik silkələnmələr" almamış, qadın və uşaq fenomenlərindən doğan "nəzəri həyəcanı" hələ də yaşamamışdır. Azərbaycanda XX əsrdə kulturoloji fikir formalaşanda, əlbəttə, qadın taleləri, qadın haqları ilə bağlı həyəcan gündəmə gəlmişdi. Əlbəttə, Azərbaycan elmi və incəsənəti üçün qadına qayğı, qadınla bağlı təşviş çox səciyyəvi olsa da, lakin biz "nəzəri həyəcan", "nəzəri silkələnmə" deyəndə başqa bir aspekti önə çəkirik. Qadın problemləri üzrə araşdırma və düşüncələr bizdə hələ ki, elə ciddi terminoloji, kateqorial, koqnitiv sistemlərin yaradılmasına gətirib çıxarmamışdır ki, onlar da öz növbəsində bütün kulturoloji fikir sistemini silkələyib həyəcanlandıra bilsin. Halbuki elmi yeniliyin əsasında həm də bu sayaq "silkələnmələr" dayanır. Ümumiyyətlə, dövrümüzdə elmin mövzusu kimi qadın nəinki önəmliliyini itirməmiş, əksinə, sosiomədəni fenomenoloji araşdırma predmeti kimi onun aktuallığı birə on qat artırmışdır.

Hər hansı mövzunun aktuallığı onun idraki cazibədarlığı, vacibliyi, semantik əhatə dairəsinin genişliyi ilə ölçülür. Milli mədəniyyətin, milli mentalitetin əsasında qadınlara münasibət, habelə qadınların kişilərə, uşaqlara, evə, sosial məkana münasibətləri durur. Bu fenomenin zəruriliyi özünü onda göstərir ki, qadın

təzahürlərinin, yəni qadın anlayışının metamorfozlarının, transformasiyalarının ortadan götürülməsi və ya ciddi şəkildə zəiflədilməsi mədəniyyətin bir çox sahələrində köklü dəyişiklərin meydana çıxmasına yol açır.

Bizim mövzunun aktuallığını müəyyən edən başqa hal odur ki, mədəniyyətdə bir çox strukturlar, simvollar, münasibətlər özlərində gizlin lay kimi femin əsaslarını gizlədir. Misal üçün, bir çox mədəniyyətlərdə kişi davranış və geyimlərinin məzmun və görünüşü qadına effektli görünmək istəyi ilə müəyyənləşir.

Beləliklə, təqdim etdiyimiz dissertasiya mövzusunun Azərbaycan gender kulturologiyası kontekstində araşdırılmasının çox dəyərli, zəruri və əhəmiyyətli olduğunu düşünürük. Çünki qadının sosial varlıq olaraq mədəniyyət sferasında anlam və önəminin, qadın sosiomədəni dünyasının fenomenoloji xüsusiyyətlərinin genderşünaslıq və mədəniyyətşünaslıq elmlərinin nəzəri bilikləri kəsişməsində öyrənilməsi mühüm koqnitiv vəzifələrin həllinə kömək edir. Eyni zamanda qadın fenomeninin Azərbaycan mədəniyyətinin müxtəlif sahələri ilə əlaqədə götürülən aspektlərinin yeni nəzəri biliklərin işığında elmi tədqqat müstəvisinə çıxarmaqla, gələcəkdə daha təfsilatlı araşdırmalar üçün zəruri epistemoloji bünövrə yaradılmış olur.

Mədəniyyətdə qadın problemi, əlbəttə, kulturologiyanın yeni mövzusu deyil. XIX əsrdən qadın həm fəaliyyət subyekti kimi, həm də fəaliyyətin obyekti kimi bütün dünyanı dəyişmiş feminizmi törətmişdi. Elə həmin əsrin sonunda da qadın demokratik fikrin əsas meyarlarından olmuşdu. Demokratiya nəzəriyyəsi və praktikası ilk addımlarından qadın məsələsinə necə yanaşması ilə sınağa çəkilmişdi. O ki qaldı Yaxın və Uzaq Şərqin müasirləşmə proseslərinə, burada da qadın hüquqları, qadın azadlıqları əsas vasitə və məqsədlərdən olmuşdu. Qadın azadlıqları müasirləşməyə aparan vasitə olduğu üçün diqqəti cəlb etmiş və sonra da həyata keçirilmişdi. Eyni zamanda, müasirləşməni müsbət dəyər kimi isbatlamaq zərurəti meydana çıxanda yenə qadının emansipasiyası, yəni buxovlardan qurtulması əsas və tutarlı arqumentlərdən biri kimi polemikaya cəlb edilmişdi. Beləcə, qadın şəxsiyyəti və simvolu emansipasiya, müasirləşmə, modernləşmə prosesinin hərəkətverici qüvvəsi kimi

əsas götürülmüş, o biri tərəfdən isə islahatları özünə cəlb edib hərəkətə gətirməsi qarşıya məqsəd kimi qoyulmuşdu. Azərbaycan maarifçi-demokratik ideoloqların bütün yaradıcılığında qadın azadlığı hər iki keyfiyyətdə, yəni vasitə və məqsəd kimi çıxış etmişdi. Artıq bu mərhələdə qadın azadlığına zərurət kimi yanaşma formalaşmaqda olan milli kulturloji təfəkkürdə sevimli mövzuya çevrilmişdi.

Qadın azadlığı, qadının sosial hadisə kimi şərəfləndirilməsi məsələlərinə bağlı XIX əsrin sonları, XX əsrin əvvəllərində bütün görkəmli mütəfəkkirlərimizin çıxışlarında rast gəlmək mümkündür. Bu çıxışların böyük qismi teatr, Molla Nəsrəddin karikaturaları, nəsr və poeziyada bədii söz və obraz şəklində özünü göstərir. Bununla yanaşı, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Şəfiqə xanım Əfəndizadə, Mirzə Cəlil kimi mütəfəkkirlər də sözügedən mövzu ilə bağlı çoxlu məqalələr çap etdirmişlər.

Əhməd bəy Ağaoğlunun bir çox əsərlərində qadın problemlərinə müasirləşmə səpkisində tez-tez toxunulurdu. "Sərbəst insanlar ölkəsi", "İhtilalmı, inqilabmı" əsərlərində feminist ideyalara hər yerdə rast gəlmək mümkündür. Ancaq eyni zamanda, o, qadın mövzusunda ayrıca məqalələr də yazıb çap etmişdi. "İslama görə və İslamda qadın"[1] və "İran qadını"[2] əsərləri bu söylədiyimizə örnəklərdir.

Qadın emansipasiyasının alovlu təbliğatçısı olan Şəfiqə xanım Əfəndizadə mətbuatda fəal yazan müəlliflərdən idi.[3] Çox maraqlıdır ki, Mirzə Cəlil özünün 1918-ci ildə çap etdiyi "Arvad məsələsi" məqaləsinə Avropa ənənəsinə uyğun ad vermişdi. Düzdür, indiki zamanda "qadın" yerinə "arvad"[4] sözünün işlədilməsi loruluğu ilə qulağımızı dəlir, ancaq nəzərə almalıyıq ki, böyük satirikin dil islahatı orta əsrlərin və "Füyuzat" kimi dərgilərin dilimiz üçün böyük

[1] Ağaoğlu, Ə.H. İslama görə və İslamda qadın // – Bakı: Ulduz, – 1990, №3, – s. 68-80

[2] Ağayev, Ə.H. İran qadını // – Bakı: Xəzər, – 1990, №2, – s.92-95

[3] Cəfərov, N.Z. Milli-ictimai fikir tariximizdən: 1914 fevral – 1917 / N. Cəfərov. – Bakı: Azərbaycan dövlət nəşriyyatı, – 1993. – s. 26

[4] Məmmədquluzadə, C. Əsərləri: [6 cilddə] / C. Məmmədquluzadə. – Bakı: Azərbaycan dövlət nəşriyyatı, – c. 6. – 1985. – s. 42

ölçüdə yad olan son dərəcə mürəkkəb leksik-qrammatik mətnlərinə qarşı adi xalq danışıq dilini qoyurdu. Zaman keçdi, artıq 1928-ci ildə Mirzə Cəlil "Mirzə Fətəli Axundov və qadın məsələsi" məqaləsində "arvad məsələsini" daha mədəni forma ilə əvəz etdi.[5]

Ümumiyyətlə, XIX əsrin sonlarından XX əsrin sonlarına qədər Azərbaycan elmi və incəsənəti qadını zülm obyekti kimi götürüb missiyasını onun müdafiəsinə qalxmaqda görmüşdü. Sözügedən zaman kəsiyində marksist-leninist ideyalar qadına yönəlmiş zülmün kökündə sosial-iqtisadi determinantları qabartmağa üstünlük vermişdi. İnqilabdan əvvəlki publisistika isə maarifçilik paradiqmasından çıxış edirdi: o, qadına qarşı zülmün kökündə xurafatı görür və bundan çıxış edərək müasirləşmənin zərurətindən danışırdı. Hərçənd sovet dövründən fərqli olaraq qadına qarşı zülmün xurafatdan gələn əsasları Ağaoğlu kimi mütəfəkkirləri təqsiri İslamda və ya konkret dində axtarmağa sövq etməmişdi. Marksist ateizm isə problemin sosial-iqtisadi və sinfi-mənəvi xarakteristikasına istinadla, qadına yönəlmiş zülmün bütöv bir iyerarxiyasını ucaldırdı. Eyni zamanda, qadın istismarı dini zülmlə çulğaşmış göstərilirdi.

Beləliklə, Azərbaycanda qadın probleminə dair elmi-publisistik ədəbiyyatın öyrənilməsi iki mühüm xətti üzə çıxarmağa imkan verir. Birincisi, qadın haqlarını müdafiə edən bədii və elmi əsərlər, ikincisi, onun insan kimi ləyaqətini tərənnüm edən yazılar. Ancaq Azərbaycan ədəbiyyatında, tarixində, kulturologiyasında qadına maraq yaranan dövrdə Qərbdə başqa axtarışlar izlənilirdi. Görünür, o zaman bizim elmi təfəkkürün bu problematikaya girişməyə hələ intellektual hazırlığı və təcrübəsi çatışmırdı. Hərçənd XX əsrin əvvəllərində "Dirilik" məcmuəsində Avropadakı feminizm haqqında bizim ictimaiyyəti məlumatlandıran məqalələr çıxmışdı. Orada hətta "Məşhur qadınlar" rubrikası vardı ki, Avropa ənənəsində biliyi, fəaliyyəti ilə seçilən tarixi qadın simalarını dövrün qadınlarına örnək göstərirdi.[6] Elə həmin bu dövrdə Qərbdə matriarxat nəzəriyyəsi ilə

---

[5] Məmmədquluzadə, C. Əsərləri: [6 clddə] / C. Məmmədquluzadə. – Bakı: Azərbaycan dövlət nəşriyyatı, – c. 6. – 1985. – s. 76-81

[6] Cəfərov, N.Z. Milli-ictimai fikir tariximizdən: 1914 fevral – 1917 / N. Cəfərov. – Bakı: Azərbaycan dövlət nəşriyyatı, – 1993. – s. 34-37

bağlı Morqan, Engels, Ziqmund Freyd, Vilhelm Rayx və diglərləri tərəfindən çoxlu ideyalar irəli sürülmüşdü.[7]

Qadınların mədəniyyətdə önəmi ilə əlaqədar söylənilən fikirlər də o dövrdə yayılmağa başlamışdı. Sözügedən fikirlərə görə, cəmiyyətdə və mədəniyyətdə müxtəlifliklərin əsasında həm də gender fərqləri durur. Marqaret Mid bunu belə söyləmişdi: cinslər arasında olan fərq mədəniyyətdə müxtəlifliklərin yaradılmasının əsasını təşkil edir.[8] Buradan isə qadınların həmin müxtəlifliklərdə rolu məsələsi ön plana çıxır. Qərbdə bu müxtəliflikləri anlamaq üçün qadın və kişinin sosial rolları problemi qoyuldu.[9] Bu zaman qadınlara və kişilərə xas sosial rollar məsələsi hətta elə şərh edilirdi ki, hər iki cinsin fərqi bir çox hallarda biofizioloji fərqə deyil, sosial rollardakı fərqlərə müncər olunurdu. Azərbaycan tədqiqatlarında gender fərqlərinin sosial rollarla əlaqələndirilməsinə yalnız XXI əsrdə nail olundu.[10]

Genderdə sosial rolların fərqi, faktiki olaraq, təkcə cinslərin mədəni fərqini düşünməyə nəzəri alət vermir, həm də qadının mədəniyyətdə hansı situasiyalar yaratmasını araşdırmaq üçün perspektivlər açır. Ancaq təəssüf ki, Azərbaycan kulturologiya elmi bu ideya ilə tanış olsa da, qadınlara xas sosial rolların mədəniyyətdə yaratdığı situasiyalara həsr olunmuş tədqiqatlar hələ də ortada yoxdur. Halbuki şah və şahzadə anaları, şairələr, sufi qadınlar təkcə zərif cinsin nümayəndələri deyildilər. Onlar həm də özlərini müəyyən sosial rollara uyğunlaşdırır, necə deyərlər, müəyyən sosial niqablar taxırdılar. Deməli, Azərbaycanın məşhur qadınlarını həm də bu baxımdan öyrənmək faydalı olardı. Hərçənd bu məsələdə Qərb tədqiqatlarının əldə etdiyi nəticələr elə də parlaq deyil. Femin sosial rollarının əsası Qərbdə qoyulsa da, bu problemin konkret insanlarla bağlı öyrənilməsi heç də geniş yayılmamışdır.

---

[7] Women’s History in Global perspective: [in 3 vol.] / Edited by Bonnie G. Smith. – Champaign: University of Illinois Press, – vol. 3 – 2005. – s. 7-8

[8] Фридан, Б. Загадка женственности: Пер. с англ. / Б. Фридан. Вступ. ст. О.А. Ворониной. – Москва: Прогресс; Литера, – 1994. – s. 24

[9] Barnes, A. The Handbook of Women, Psychology, And the Law / A. Barnes. – New York: John Wiley and Sons, – 2005. – s. 11-14

[10] Абасов, А.С. Проблемы истории, теории и методологии познания / А. Абасов. – Баку: Элм, Ени Несил, – 2001. – s. 21-23

Bizi dissertasiyada maraqlandıran məsələlərdən biri həm dünya mədəniyyətində, həm də Azərbaycanda qadın arxetipləri olmuşdur.

Fikrimizcə, Yunqun təlimindən başlayıb davam edən inkişaf xəttinə arxetiplərin kulturolojiləşməsini əlavə etmək olar. Mədəniyyət təkcə qadınların və ümumiyyətlə, uşaqların, kişilərin psixoloji dünyasını gerçəkləşdirmək üçün məkan və vasitələr sistemi deyil. Mədəniyyətdə formalaşmış məkan, struktur şəbəkəsi həm də arxetiplərin özlərini reallaşdırmasına qarşı çoxsaylı müqavimət vasitələri sıralayır (bu problemi feminist Betti Fridan özünün "Qadın bilməcələri" kitabında[11] açaraq, sübut etməyə çalışır ki, mədəniyyət qadın səadətinin, dolğun yaşamaq istəyinin qarşısını alan çətinliklər, maneələr mənbəyidir). Ona görə də qadın arxetipləri, və ya belə demək mümkün olarsa, arxetipik, yəni arxetiplərin qabarıq təcəssümü olan qadınların həyatı mədəniyyətlə, sosial dünya ilə müxtəlif gərginliklərdə keçir və bu prosesdə qadınlar geyimdən tutmuş yaşayış məkanının seçilməsinə qədər, sosial davranış stereotiplərindən tutmuş səliqə və təmizlik normalarından ən müxtəlif müstəvilərdə yeni situasiyalar yaradırlar. Tarix boyu qadınların əməlləri sayəsində köhnə mədəniyyət hadisələri yeni mənalar, semantik çalarlar qazanmışdı. Bu mənada mövzumuzla bağlı təkcə "dünyanı dəyişən qadınlar" və ya "qadınların şərəfli tarixi" janrında axtarışlar dəyərli deyil. Mövzumuz ad-san qazanmamış sıravi arxetipik qadınların dünyamıza nələr gətirməsini tipoloji modellərdə ümumiləşdirməyi əhəmiyyətli hesab edir. Bu məsələ Qərbdə yeni problem kimi Karl Yunqun təsiri ilə Cin Şinoda Bolen tərəfindən qoyulmuş[12], xeyli vaxt keçəndən sonra isə rus qadın tədqiqatçılarının diqqətini özünə cəlb etmişdi.[13] Ancaq nəticədə rus mütəxəssisləri Bolenin nəzəriyyəsinə ciddi anlamda heç nə əlavə etməmiş, sadəcə nəzəriyyəni bir qədər də məşhurlaşdıran yazılar yazmışlar. Halbuki Qərbdə qadınlarla bağlı arxetip nəzəriyyəsi

---

[11] Фридан, Б. Загадка женственности: Пер. с англ. / Б. Фридан. Вступ. ст. О.А. Ворониной. – Москва: Прогресс; Литера, – 1994. – 496 с.

[12] Болен, Дж.Ш. Богини в каждой женщине: Новая психология женщины; Архетипы богинь / Дж.Ш. Болен. – Москва: Издательство София: – 2007. – 272 с.

[13] Бедненко, Г. Открой в себе богиню: образы греческих богинь – роли и сценарии поведения современной женщины: [Электронный ресурс] / – 5 сентября 2017. URL: http://pryahi.indeep.ru/psychology/jungian/artemida_mine.html

zaman keçdikcə daha da təkmilləşdirilmişdir. Məsələn, Mini S. Conson öz kitabında yəhudi-xristian tarixinin adlı-sanlı qadınlarını arxetip kimi götürmüş və Amerikanın müasir qadınlarını onlarla identifikasiya etmişdi. Beləcə, Musa peyğəmbərin anası Yohevedlə Amerikanın anası Abiqay Adamsı eyniləşdirmişdi. Sonuncunun isə Amerika xalqının yaranışının təməlində dayandığı hesab olunur.[14]

Yunq və onun feminist davamçılarında arxetiplər mifoloji personajlarla ətə-qana gətirilir. Mini S. Conson isə millətin və mədəniyyətin məşhur qadınlarını bu arxetiplərdə təcəssüm edəndən sonra müasirlərini anlamaq üçün onlarla analogiyadan istifadə edir. Ona görə də biz, arxetiplər nəzəriyyəsinə madam Consonun öz əlavələrini daxil etdiyini söyləyirik.

Dissertasiyada bizi belə bir məsələ çox maraqlandırır: semiozisdə qadınlar necə iştirak edir? Arayış üçün qeyd edərdik ki, semiozis mənaların yaranması və ya yaradılması prosesini bildirir. Bu proses semiotika elmində geniş olmasa da, müəyyən dərəcədə öyrənilmişdir. Ancaq eyni sözləri qadının semiozisdə rolu haqqında demək olmaz. Qadın semiozisi mədəniyyətdə qadının biofizioloji, kulturoloji məxluq kimi müəyyən qisim mənalandırma aktlarının əsasında durmasına deyilir. Semiozis bu anlamda bir termin olaraq bizim dissertasiyada təklif edilmişdir, ancaq onun bildirdiyi proses tarixdə və bütün cəmiyyət tiplərində həmişə varlığını göstərmişdir. Məsələn, feminizm XIX–XXI əsrlər boyu öz idealları, ideologiyası uğrunda bütün cəbhələrdə mübarizə aparmışdır. Həmin cəbhələrdən biri isə, semiotikanın təbiri ilə desək, semiozis muşdur Feminizm semiozis prosesində ya qadını üstün etmək, ya da kişiyə bərabər tutmaq məqsədi ilə mənaları dəyişdirmək və ya yeni mənalar yaratmaq üçün nəzəri-praktiki çalışmalara girişmişdi. Bir nümunəyə nəzər salaq. Alisa Keefe "İsayyada qadın bədəni və sosial bədən" kitabında, faktiki olaraq yəhudi peyğəmbərini (İsayyanı) semiozis planında ittiham edərək göstərir ki, onun İsraili Yəhvanın zina etmiş arvadı adlandırması qadını mənfi planda mənalandıraraq, aşağı, gözü

[14] Johnson, M.S. Women in Christianity / M.S. Johnson. – New Delhi: Mittal Publications, – 2005. – s. 13

kölgəli varlığa çevirir.[15] Bununla müəllif İudaizmdə qadınlara qarşı yönəlmiş semiozis aktına qarşı çıxış etməklə, ona alternativ kimi öz baxışını, tənqidini qoyur və beləcə, qadın semiozisini fəallaşdırır.

Qadın haqları üzrə müdafiə hərəkatının lap başlanğıcından semiozislə bağlı ideya bundan ibarət idi ki, qadınların buxovlanması həm də onların semiozisdə aktiv subyekt olmasının qarşısını almışdır. Bu ənənənin davamı olaraq bütün feminizm hərəkatı, bir yandan, dünyanı, mədəniyyət hadisələrini mənalandırarkən qadınların böyük potensiala malik olduğunu göstərməyə çalışmışdısa, digər tərəfdən isə patriarxal mədəniyyətin qadınlar üzərində repressiyasını məhz bu potensialdan qorxu kimi yozmuşdu. Qadınların tarixinə aid bir kitabda göstərilir ki, patriarxal dövrdə qadınlar iqtisadi baxımdan kişilərə tabe etdirilsələr də, onlar baxıcı, şaman, ana Tanrının nümayəndəsi və ruhani kimi qalmaqda davam edirdi. Bu, kralların ana tanrını kişi tanrıya onun arvadı kimi tabe etdiyi vaxta qədər davam etdi. Qədim yəhudilər kişi Tanrı anlayışını yeganə Tanrıya çevirəndə bu patriarxallığın qələbəsi oldu.[16]

Müasir elmdə semiozisə qadınlarla bağlı pozitiv planda da baxılmışdır. Məsələn, M.Sterlikova paleolit dövründə İspaniyadan Sibirədək geniş ərazidə yayılmış paleolit "Veneralarında", Neolit dövründə isə ana tanrıçalarının heykəllərində femin mənalarının gücünü görür.[17] Denis Tompson radikal feminizmdən danışanda izah edir ki, feministlərin bir fəaliyyət istiqaməti mənalar dünyasında özünü göstərirdi, çünki qadın haqlarını müdafiə edən mənalar sistemini patriarxal dəyərlərin alternativi kimi formalaşdırmaq lazım gəlirdi.[18]

Qeyd etməliyik ki, dissertasiyada istifadə etdiyimiz əksər ədəbiyyatlarda qadın haqları üzrə hərəkatın mənalar dünyası ilə bağlı aspektlərinə toxunulsa da, heç birində qadın semiozisi problem və

---

[15] Keefe, A.A. Woman's body and the social body in Hosea / A. Keefe. – London: Bloomsbury T&T Clark, – 2002. – s. 9-10

[16] Women's History in Global perspective: [in 3 vol.] / Edited by Bonnie G. Smith. – Champaign: University of Illinois Press, – vol. 3 – 2005. – s. 12-13

[17] Стерликова, М.С. Семиозис женских культов в традиционных сообществах // – Тамбов: Аналитика Культурологии – 2008. – Выпуск 3(12), – с. 145-147

[18] Thompson, D. Radical Feminism Today / D. Thompson. – London; Thousand Oaks; New Delhi: SAGE Publication Ltd, – 2001. – s. 20

termin kimi qoyulmamış, deməli, məsələ eksplisitləşdirilməmişdir. O biri tərəfdən, qadın semiozisinin nəzərdə tutduğu proseslər Qərbdə geniş öyrənilsə də, bunu Azərbaycana aid etmək doğru olmaz. Feminist paradiqmalarla işləyən Azərbaycan alimləri, əlbəttə, qadınlarla bağlı milli mədəniyyətə səpələnmiş müsbət mənaları tapıb toplamışlar. Ancaq biz qadın ekzistensiyasını, varlığını aktiv başlanğıc, semiozis dalğalarını doğuran generativ subyekt kimi araşdıran əsərlərə rast gəlməmişik.

Dissertasiyanın ayrıca bir bölməsinin məzmununu feminizm təkamülünün paradiqmatik gəlişmə kimi öyrənilməsi təşkil edir. Əlbəttə, elmi metodologiyada Tomas Kunun paradiqmalar nəzəriyyəsi geniş öyrənilmişdir. Ancaq feminizmdə yeni cərəyanlara ehtiyacın yaranmasında praktiki səbəblərlə yanaşı paradiqmatik səbəblərin də göstərilməsi Neeru Tandonun xidmətidir. O monoqrafiyasını elə belə də adlandırmışdı: "Feminizm: Paradiqmatik dəyişmə".[19] Düşünürük ki, bundan sonra qadın hərəkatlarını öyrənən tədqiqatların paradiqmalar nəzəriyyəsi işığında aparılması həm gender kulturologiyasını keyfiyyətcə yeni səviyyəyə çıxarardı, həm də sözügedən elm sahəsinin epistemoloji imkanlarını zənginləşdirərdi. Təqdim olunan dissertasiya işi də bu baxımdan əhəmiyyətlidir.

Sadaladığımız konsepsiyalarda nəzərdən keçirilən proseslər dünya mədəniyyətində daim yer alsa da, onlar mövzunu bizim formulə etdiyimiz konkretlikdə qoymamışdır. Bu səbəbdən qadın problemlərinin fərqli aspektləri üzrə istənilən qədər araşdırmalar olsa da, bəzi istisnalar xaric, bu əsərlərdə kulturoloji modellərin, mədəniyyətin semiozisinin feminist nəzəriyyələrdə təzahürü xüsusi olaraq öyrənilməmişdir.

Mədəniyyətin strukturuna, tarixinə, tiplərinə həsr olunmuş çoxsaylı tədqiqatlar arasında mədəniyyəti generativ, törədici başlanğıclarla əlaqədə götürüb öyrənən məqalə və monoqrafiyalara nadir hallarda rast gəlmək mümkündür.

Məsələn, Sorokin peyğəmbərlik mədəniyyətini (ideasiya mədəniyyəti) sensitiv, yəni hissi və idealist mədəniyyətlərdən

---

[19] Tandon, N.P. Feminism: A Paradigm Shift / N. Tandon. – New Delhi: Atlantic Publishers & Dist, – 2008. – 203 p.

ayıranda peyğəmbərlik institutunu faktiki olaraq törədici başlanğıc kimi götürürdü. Bu zaman həmin başlanğıc tipik situasiyalar və semantikalar törədən nüvələr kimi qəbul olunurdu.[20]

Şpenqler böhranı kulturoloji fenomenə çevirəndə mədəniyyət böhran ideyası ilə "təhrik" olunurdu ki, bununla da çox maraqlı müstəvilərdə qarşımıza çıxırdı.

Belə bir vəziyyətdə qətiyyətlə söyləyə bilərik ki, Azərbaycanda aparılan fəlsəfi, kulturoloji, psixoloji və hətta sosioloji tədqiqatlarda qadın probleminə yetərincə toxunulmuşdur. Lakin bu zaman qadının formalaşmasına ruhun dərin qatlarından təsir göstərən arxetiplərin, habelə qadın ekzistensiyasının mədəniyyətdə və təfəkkürdə nə kimi sonuclara gətirib çıxarmasının araşdırılması xüsusi araşdırma predmetinə çevrilməmişdir.

Son illər qadın probleminin yeni nəzəri-metodoloji əsaslar üzərindən araşdırılması baxımından, artıq qeyd etdiyimiz kimi, Cin Şinoda Bolenin tədqiqatı böyük maraq doğurmuşdur. Həmin tədqiqatın nəticəsi olaraq "Qadınlarda tanrıça arxetipləri" adlı kitab ortaya çıxmışdır.[21] Azərbaycan genderşünaslığı, 2013-cü ilədək olan dövrü götürsək, hələ də bu nəzəriyyəni mənimsəyərək, tətbiq etməmişdir. Halbuki, Rusiyada bu barədə ciddi tədqiqatlar meydana çıxmışdır.

Bizim dissertasiyamız qadın fenomeninin mədəniyyətdə məna və situasiyalar törətməsi problemini elmi mühakimə predmetinə çevirən və bu kontekstdə Azərbaycan mədəniyyət tarixinə yeni rakurslardan nəzər salan ilk tədqiqatlardan hesab oluna bilər.

**Tədqiqatın obyekti və predmeti.** Məlumdur ki, obyekt və predmet təxminən eyniqaydalı sözlərdir. Ancaq ötən əsrdə aparılan elmi-metodoloji araşdırmalarda onları termin kimi fərqləndirmək fikri üstünlük təşkil etmişdi. Bunun nəticəsi olaraq dəqiqləşdirilmişdir ki, obyekt tədqiqatın daha geniş kontekstini, predmet isə nisbətən dar çərçivəsini, mövzunun spesifik sahəsini

---

[20] Ивин, А.А. Философия истории: Учебное пособие / А. Ивин. – Москва: Гардарики, – 2000. – s. 26-30

[21] Болен, Дж.Ш. Богини в каждой женщине: Новая психология женщины; Архетипы богинь / Дж.Ш. Болен. – Москва: Издательство София: – 2007. – 272 с.

bildirir. Bu əlamətlərdən çıxış edərək söyləyə bilərik ki, bizim dissertasiyamızın tədqiqat obyekti dünya mədəniyyətinin femin və gender parametrlərindən açılmasıdır. Predmeti isə mədəniyyət modellərinə, mədəniyyətdəki məna yaradıcılıqlarına qadın psixologiyasının və ekzistensiyasının verdiyi xüsusiyyətlər kompleksidir. Bu predmetin sərhədlərini və strukturunu feminizmin gətirdiyi paradqimalar, qadın psixologiyasının özəllikləri, Şərq-Qərb münasibətlərində qadın fenomeni, o cümlədən, Azərbaycan mədəniyyətində həmin fenomenin təzahürləri formalaşdırır. Bizim araşdırmanın predmeti qadın geyimlərindən tutmuş, modernləşmənin feminist ölçülməsinə qədər bir çox məsələləri əhatə edir. Beləliklə, dissertasiya üçün seçilən predmet qadın fenomeninin böyük tarixi-kulturoloji kontekstdə tədqiqini zənginləşdirmək üçün mənbələr sistemini, informasiya qaynaqlarını təmin edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi Azərbaycan mədəniyyəti kontekstində qadın probleminin araşdırılmasının müasir elmi-metodoloji bazaya istinadla, koqnitiv-epistemoloji istiqamətlərinin müəyyənləşdirilməsi və yeni izahedici modellərinin yaradılması çıxış edir. Artıq qeyd edildiyi kimi, qloballaşmanın təsiri altında bizdə də femin mövzusuna həsr olunmuş çoxlu sayda məqalələr və kitablar meydana gəlmişdir. Ancaq onların çoxunun elmi aparatı, metodu və əsaslandıqları faktiki-məlumat bazası heç də müasir elmi standartların tələblərinə cavab vermir. Bu vəziyyətdə biz qarşıya qoyduğumuz məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirməliyik:

- qadın dünyası ilə bağlı toplanmış biliklərin tarixi təkamülünü araşdırıb uyğun informasiya bazasının formalaşdırılması;
- mədəniyyətlərin feminist ölçülməsinin öyrənilməsi;
- müxtəlif tarixi mərhələlərdə, müxtəlif formasiya və mədəniyyətlərdə qadınların üzləşdikləri tipoloji dəyişmələrin araşdırılması;
- qadın fenomeninin müxtəlif sosial-mədəni kontekstdə gender və kulturoloji nəzəriyyələrə istinadla öyrənilməsi;
- qadın sosiomədəni varlığının feminist paradiqmaların dəyişməsi kontekstində araşdırılması;

- qadın problematikasının müstəlif kulturoloji aspektlərinin daha dolğun və təfslilatlı öyrənilməsinə şərait yaradan nəzəri-paradiqmatik metodologiyanın təhlil edilməsi;

- qadın psixologiyasının nəzəri-kulturoloji rekonstruksiyasının verilməsi;

- qadın dünyasının kulturoloji planda semioloji təhlilinin verilməsi; bu zaman müxtəlif feminoloji durumların fərqli zaman kəsiklərində mədəniyyətə translyasiya etdiyi mənaların açılması;

- qadın semiozisinin nəzəri və praktiki təcəssümlərinin Azərbaycan mədəniyyəti kontekstində araşdırılması;

- müasir Azərbaycan elmində qadın problemləri üzrə tədqiqatların metodoloji perspektivlərinin müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Biz öz araşdırmamızda mövzuya fənlərarası səciyyəli metodlar kompleksindən yanaşmışıq. Tədqiqatda nəzəri müddəalar və mülahizələr sistematik olaraq emprik üsullarla təsdiqlənmişdir. Dissertasiyada müraciət etdiyimiz nəzəri-metodoloji yanaşmaların əsasını kulturologiya və genderşünaslıq təşkil edir. Bu elmlərin çərçivəsində semioloji, psixoloji, antropoloji paradiqmalardan geniş istifadə olunmuşdur. Psixoloyi yanaşmalar daha çox Freydçi və Yunqçu konsepsiyalara istinadladır. Semiotikadan bizim köməyimizə işarələr nəzəriyyəsi, semiozis çatır.

Müasir dövrdə marksist-leninçi fəlsəfənin bir sıra müddəaları nə qədər köhnəlsə də, tarixilik metodu öz aktuallığını saxlayır. Bizim dissertasiyada, xüsusilə feminizm cərəyanları və qadına elmi baxışların dəyişməsi planında tarixi-dialektik metod öz effektivliyini sübut edir. Beləcə, dissertasiyanın metodoloji əsasında biz metodları və nəzəriyyələri plüralizm və kompleks prinsipində birləşdirməyə çalışmışıq.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə tədqiqat işinin aşağıdakı nəticələri çıxarılmışdır: Dissertasiya mövzusu üzrə aşağıdakı müddəalar müdafiəyəyə çıxarılmışdır:

- Dissertasiyada proseslərin "mədəniyyət, modellər və qadın" konseptual üçbucağında nəzərdən keçirilməsi belə bir problemi xülasə etməyə imkan verir ki, mədəniyyət modelləri qadın haqqında ictimai diskurslar əsasında prinsipial fərqlilik ortaya çıxarır;

- Qadınların ənənəvi cəmiyyətdə qapalı edən və beləcə mədəniyyət üçün məchulluqda saxlayan vasitələrdən biri kimi "küsməklə repressiya etmənin" incələnməsi tarixi feminoloji və kulturoloji önəm qazanır;

- Patriarxal mədəniyyətlərin kişi-mərkəzçiliyi qadına aid bütün maddi, mənəvi və simvolik sferaları həm semiotik, həm sintaqmatik, həm də paradiqmatik cəhətdən tənzimləyir;

- Mədəniyyət nə qədər çox ənənəvidirsə, onda təhlükəli sayılan hadisə və faktların sayı bir o qədər çoxdur. Belə cəmiyyətlərdə həm qadın özü tez-tez təhlükə kimi düşünülür, həm də qadınla bağlı daha çox şeylər təhlükə qaynağı sayılır

- Mədəniyyət öz dinamikası üçün bir bir çox impulsları semantikləşdirmə aktlarından alır, bu zaman proseslərin subyekti və obyekti mövqelərinə qadın qoyulur;

- Qadınların hicabı atmaqla fəal ictimai həyata qoşulmaları sadəcə sosial hadisə olmayıb, ənənəvi mədəniyyətdə semiotik qəzalar törədici hadisə sayılmalıdır;

- Mədəniyyət öz aktivliyini saxlamaq üçün daima müxtəlif vasitələrə və yollara əl atır, beləki onun fəallıqdan qalması mahiyyət mündəricəsini itirməsi anlamına gəlir;

- Mədəniyyət adətlər və əxlaq normaları əsasında həm təzyiqedici, həm də həvəsləndirici mexanizmlər ortaya çıxarır;

- Qadın psixologiyası ruhun qadın biologiyası və sosial rolları ilə təmasa girməsindən formalaşır;

- Azərbaycan maarifçilərinin və müasirləşmə ideoloqlarının fundamental ideyalarının və təşəbbüslərinin bir çoxunun məğzində sosial dünyaya yeni mənalar şəbəkəsi proyeksiya etmək dururdu. Bu cür fəaliyyət Azərbaycanın ənənəvi gender dünyasının bütün sahələrində mühüm semantik qəzalara yol açmışdı;

- Qadın davranış və geyim semiozisinin törətdiyi qəza birbaşa millətin mentalitetinə təsir edərək, onu kökündən dəyişdirmişdi;

- Qadın azadlıqlarının artdığı cəmiyyətlərdə onların mentalitetə təsiri daha güclü olur, bu səbəbdən Qərb mədəniyyətində qadınların mentallıqla bağlı semiozisi daha güclüdür.

**Tədqiqatın elmi yeniliyi.** Mədəniyyətdə qadın problemlərinin semioloji və eistemoloji aspektlərinin, habelə Azərbaycan

mədəniyyətində qadın fenomeninin təzahür formalarının nəzərdə tutulan metodoloji əsasda öyrənilməsi özlüyündə istər Vətən kulturologiyasında, istərsə də genderşünaslığında yenilikdir. Bundan əlavə, aşağıda sadalananları biz dissertasiyanın yeniliyi hesab edirik:

- Azərbaycan mədəniyyətşünaslığında və genderşünaslığında qadın problemləri üzrə tədqiqatların perspektivləri və problematikası faktiki olaraq ilk dəfə konkretləşdirilmiş və öyrənilmişdir;
- qadın fenomeninin modellər kompleksi şəklində mədəniyyətə təsiri bir problem kimi qoyulmuş və təhlil edilmişdir;
- mədəniyyət dünyası feminizm ideologiyası süzgəcindən araşdırılmışdır;
- mədəniyyətin semantik törədiciliyində qadınların iştirakı problemi Vətən elmində ilk dəfə nəzərdən keçirilmişdir;
- femin psixoloji nəzəriyyələrindən çıxarılan kulturoloji nəzəriyyələr xülasə edilmişdir;
- Parmenid fəlsəfəsi ənənəsinə istinadən mədəniyyət "bir və çox" parametrlərində modelləşdirilmiş, bu zaman patriarxal kişi-mərkəzçi mədəniyyətlərinin qadınla bağlı bütün sferaları reqlamentləşdirməsi izah edilmişdir;
- İslam, İudaist və Hinduist mədəniyyətlərin gender situasiyaları təhlil edilmişdir;
- Gender stereotiplərinin Qərb və müsəlman mədəniyyətləri arasında meydana gətirdiyi gərginliyin etik-psixoloji aspektləri araşdırılmışdır;
- sivilizasiyalar arası ziddiyyətlər "qadın və mədəniyyət" problemi kontekstində də səciyyələndirilmişdir;
- qadın simvollarının mədəni semiotika kontekstində nəzərdən keçirilməsi zamanın mədəni dinamikasını yenidən dəyərləndirməyə imkan vermişdir;
- dissertasiyada mədəniyyətin cəmiyyət və təbiət hadisələrini semantikləşdirməsi funksiyası "semantik generasiyalar", "semantik transformasiyalar", "semiozis" kimi konseptlərdən istifadə edilməklə açılmışdır;
- semiozislə bağlı "dalğalandıran başlanğıclar" və "semiotik qəza (zəlzələ)" terminləri ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmiş, modernləşmə, inqilab kimi fundamental sosial hadisələrlə yanaşı,

qadın semiozisi porsesinin də transformativ keyfiyyətləri üzə çıxarılmış və təhlil edilmişdir;

- müxtəlif örnəklərin timsalında qadınlar və kişilər arasında sosial və mədəni rollardan irəli gələn fərqliliklər araşdırılmış, etik-davranış dəyərləri və normaları əsasında mədəniyyətin aşkar və gizli təzyiq mexanizmləri aşkara çıxarılmışdır;
- feminizm fenomeni sosial-siyasi amillərlə yanaşı, paradiqma axtarışları kontekstində də araşdırılmış, hər feminist cərəyana fərqli paradiqmalar çərçivəsində uyğun gələn qadın azadlıqlarının müvafiq forması göstərilmişdir;
- Karl Yunq və Cin Şinod Bolenin ideyalarından bəhrələnərək, Azərbaycan tarixinin və ədəbiyyatının tanınmış qadın simalarına uyğun arxetiplər müəyyənləşdirilmişdir;
- Azərbaycan maarifçilərinin, modernləşmə ideoloqlarının qadın haqları və missiyaları ilə bağlı fəaliyyəti yeni semiozis tipi kimi açılmışdır;
- cəmiyyətdə qadın azadlıqlarının artımı ilə onların mentalitetə təsiri arasında mütənasiblik semiozis əsasında öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, əsərdə yeni elmi yanaşmalara və yeni təhkiyə üsuluna əsaslanaraq, istər genderşünaslığın epistemoloji məsələləri, istər mədəniyyətdə semiozis problemləri, istər qadınların sosiomədəni tip olaraq psixoanalitik ölçülməsi, istərsə də Vətən sosiohumanitar elmlərində qadın problematikasının mədəni aspektlərinin gələcək perspektivləri müəyyənləşdirilmiş və öyrənilmişdir. Bu zaman ideolojiləşdirilmiş və sxolastikləşdirilmiş marksizm-leninizm irsininin idraki stereotiplərindən və sovet dövrünün bəlli "rəsmiyyətçi" yazı üslubundan qurtulmaya çalışılmış, dünya kulturoloji, gender nəzəriyyələrinin məhsuldar ideyaları zəminində gender mədəniyyətşünaslığında yeni konseptual modellər yaradılmışdır. Tədqiqat gedişində elmi dövriyyəyə "dalğalandıran başlanğıclar", "semiotik qəza (zəlzələ)" kimi bir sıra yeni teminlər daxil edilmişdir ki, bu da əsərin nəzəri əhəmiyyətini yüksəldir.

Tədqiqatımızın praktiki əhəmiyyətinə gəlincə isə ilk növbədə qeyd etmək istərdik ki, artıq 30 ilə yaxındır ki, müasir Azərbaycan mediasında, incəsənətində və vətəndaş cəmiyyətində femin mövzusu

bir daha gündəmdən düşməmək şərti ilə ön plana çıxmışdır. Feminist ideyalara elmi və ictimai diqqət fonunda jurnalistlərin, sənətkarların, vətəndaş cəmiyyəti fəallarının qadın problemləri ilə bağlı məlumatlanması onların fəaliyyətinə praktiki fayda verərdi. Bizim dissertasiya bu baxımından kifayət qədər dəyərli məlumatlar qaynağıdır. Həmçinin dissertasiyada gətirilmiş faktiki materiallar, irəli sürülmüş elmi mülahizələr və ümumiləşdirmələr, öz əksini tapmış təcrübi və nəzəri yekunlar gender kulturologiyası üzrə mühazirə və ixtisas kurslarının, magistratura pilləsi üçün proqramların və metodik vəsaitlərin, ümumiləşdirici əsərlərin yazılmasında, Azərbaycan mədəniyyətində qadın fenomeni və probleminin müxtəlif aspektlərinin gələcək araşdırmalarında istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmununu ümumrespublika və beynəlxalq konfransların materiallarında öz əksini tapan, Azərbaycanda və xaricdə bir sıra elmi jurnallarda dərc olunan elmi məqalələr (Azərbaycanda 25, xaricdə 6) təşkil edir. Tədqiqatın nəticələri tezis şəklində doktorantlar və dissertantların, mütəxəssis və alimlərin konfranslarına çıxarılmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" kafedrasında hazırlanaraq yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş (31741 işarə), birinci fəsil (104178 işarə), ikinci fəsil (117111 işarə), üşüncü fəsil (131153 işarə), dördüncü fəsil (108568 işarə), nəticə (10677 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 503 min 428 işarədir.

## II.DİSSERTASİYA İŞİNİN ÜMUMİ MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tarixşünaslıq ədəbiyyatı təhlil edilmiş, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri xülasə olunmuş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, tədqiqatın metodoloji əsası,

elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmiş, aprobasiyası verilmişdir.

Dissertasiya işinin **birinci fəsli "Gender üzrə epistemologiya məsələləri"** adlanır və iki yarımfəsildən ibarətdir. **"Mədəniyyət və mədəni modellər sistemində qadın fenomeni"** adlanan birinci yarımfəsildə mədəniyyətin təqdim edildiyi modellərin fenomenoloji aspektləri araşdırılmış, mədəni proseslər genişlənmə və daralma ritmində nəzərdən keçirilmişdir. Bu zaman belə bir müddəadan çıxış edilmişdir ki, mədəniyyətin özü də təbiətin, dünyanın modeli olduğuna görə, müxtəlif mədəniyyətlər təbiətin, dünyanın və cəmiyyətin fərqli modellərini özlərində əks etdirir. Gəldiyimiz qənaətlərə görə, cəmiyyətdə elə hadisələr var ki, hansısa dövrlərdə, hansısa mərhələlərdə mədəniyyətə daxil olmur (məsələn, qadın səyyahların təəssüratları). Bu səbəbdən cəmiyyət mədəniyyəti daha kiçik çoxluq kimi özünə daxil edir.

Qeyd edilir ki, bir çox cəmiyyətlərdə qadınlar özlərini daxili senzura ilə məhdudlaşdırmağa məcbur qalmışdılar. Abır-həyanın psixoloji korrelyatı utancaqlıqdır və hələ XIX əsrdə Darvin bu hissin qadınlarda daha güclü olduğunu aşkar etmişdi.[22] Utanma hissi qadınları cəmiyyətdə qapalı məxluqa çevirdiyi üçün onlar kişilərə nisbətən mədəniyyət sahəsində az fəaliyyət göstərən şəxsiyyətlər olurlar. Ona görə də konkret desək, Azərbaycan ədəbiyyatında qadınların psixoloji dünyası, daxili dünyalarının kölgədə qalmış tərəfləri kifayət qədər aydınlaşdırılmamışdır.

Sözügedən yarımfəsildə qadınlarla bağlı digər bir məhdudlaşdırma texnologiyasına – küsməyə də aydınlıq gətirilmişdir. Küsmək subyektin informasiya qaynağı olmaq və onu əldə etmək haqqına sahib olmaq, subyektin fiziki vasitələr (buxov, ip) olmadan əl-ayağını bağlamaq, insanı döymədən əzaba məhkum etməkdir. Bax, bütün bu funksiyaları olan küsmək aksiyaları tarixdə daha çox qadınlara şamil olunmuşdur. Ona görə də "küsməklə repressiya edilmiş qadınlar tarixi" kulturologiyada böyük evristik potensiala malik araşdırma mövzusudur. Özü də mədəniyyətin sərhədlərinin senzura, küsmək, utancaqlıq vasitələri ilə

---

[22] Misheva, V.İ. Shame and guilt: Sociology as a Poietic System / V.İ. Misheva. – Uppsala: Acta Universitatis Upsaliensis, – 2000. – s. 39

məhdudlaşdırılması faktının aşkara çıxararılması ilə mədəniyyətlə bağlı "genişlənmək" ifadəsi vətəndaşlıq hüququ qazanmış olur. Yeri gəlmişkən, feministlər qadın fenomenini xüsusi diqqətlə işləyəndə əvvəlki mədəniyyət həcmindən və sərhədlərindən kənarda olan qadınlara aid bir çox halları mədəniyyətə daxil etmişdilər.

Bəlli olduğu kimi qadın, kişilər üçün min illərlə sirli, məchul, daxili aləmi bilinməz varlıq olaraq qalmışdı. Feministlərə görə, məhz bu səbəb-nəticə zənciri kişinin qadından qorxusunu və onu öz iradəsinə tabe etmək canatımını doğurmuşdu. Qadının həyat mənbəyi olması onun kişidə qarışıq hislər – qorxu, heyranlıq və s. törətməsinin digər səbəbi olmuşdur.[23]

Karen Xorninin bu müddəasına əsaslanaraq, biz mülahizə yürüdürük ki, Məhəmməd peyğəmbərin qadınlarla bağlı bəzi hədisləri qadınlara nifrət kimi yox, qadınlardan qorxunun təhlükəli nəticələri haqqında xəbərdarlıq kimi təfsir olunmalıdır. Allahın rəsulu bu qorxudan qadınların kişi üzərində güclü təsiri olmasını üzə çıxarır. Hədislərin tərbiyəvi əhəmiyyəti isə odur ki, cəhənnəm hədəsi ilə qadınları öz imkanlarından sui-istifadə etməkdən çəkindirsin.

Xüsusi olaraq vurğulanır ki, cəmiyyətdə elə qatlar, kəsimlər var ki, onlar məhz mədəniyyətdən kənarda qalırlar. Biz şüurdankənar kollektiv ruhu nəzərdə tuturuq. Məşhur psixoloq K.Yunq bunu "kollektiv şüursuz ruh" və ya "kollektiv şüursuzluq" adlandırmışdı.[24] Cəmiyyətdə refleksiyadan, yəni düşüncə hədəfindən kənarda qalan külli miqdarda hadisələr var. İndi belə faktları nəzərə alaraq deyə bilərik ki, mədəniyyət refleksiyadan, şüura bəllilikdən keçən insan fəaliyyəti və bu fəaliyyətin məhsullarının məcmusudur. Kulturologiya tarixində "mədəniyyət" terminin yanına gözlənilmədən "qeyri-rəsmi mədəniyyət" terminini qoyub onun əsasında antik dövr və orta əsrlərin xeyli fenomeninin araşdırılması cəmiyyətdən "mədəniyyət" anlayışının imkan vermədiyi çoxlu "qeyri-rəsmi mədəniyyət" laylarına nüfuz etmək tələbatı ilə bağlı idi.

---

[23] Хорни, К. Женская психология / К. Хорни. – Санкт-Петербург: Издательство Восточно-Европейского института психоанализа, – 1993. – s. 38
[24] Аналитическая психология: Прошлое и настоящее / К.Г. Юнг, Э.Сэмюэлс, В. Одайник [и другие]; сост. В. В. Зеленский, А. М. Руткевич. – Москва: Мартис, – 1995. – s. 176-178

Araşdırmalarımız bizə mədəniyyət və ya onun sahələrinin iki zidd modeldə açıldığı qənaətinə gəlməyə əsas verir. Bir model konsentrik strukturda mərkəzəqaçma təcillərini yaradır və onun əsas prinsipi vəhdətə gətirmək olur. Mədəniyyətdə hansı faktınsa bir əsas, bir başlanğıc kimi mərkəzdə dayanıb ətrafına çoxluğu toplaması onları özü ilə eyniləşdirilməyə sövq edir və bununla da onların bu təkcəyə uyğun mahiyyət qazanmasına şərait yaradır. Və bununla da həmin mərkəzin ətrafındakılara repressiyası başlayır, çünki onları özünə birləşdirməklə müxtəlifliklərini azaldır və, yuxarıda söylədiyimiz kimi, özündə yox olmağa vadar edir.

Digər model mərkəzdənqaçma prosesinə təkan verərək, Böyük Partlayışdan sonra durmadan genişlənməkdə olan kosmos tipində çoxalmalara səbəb olur və nəticədə bircə ilə çoxluğun qütbləri ən müxtəlif konfiqurasiyalar törədir. Bu zaman ətrafdakı çoxluq müxtəlif səbəblərə görə mərkəzlə identifikasiyadan “iyrənir”, və ya imtina edir. Nəticədə identifikasiya aktı dəyərsizləşir.

Mərkəzəqaçma və mərkəzdənqaçma modelləri əsasında mədəni proseslərin təhlili bizə söyləməyə əsas vermişdir ki, XIX əsrə qədər kişi və kişi dünyası həm Qərbdə, həm Şərqdə mədəniyyətin alışılmış biçimini yaratmışdı. Bu biçimdə dəyərlərin çoxu üçün kişi meyarları (və ya kişi ilə identifikasiya) həlledici idi. Bu müddəaya isbat olaraq sözügedən yüzilliyədək geyim dəblərinin məğzində məhz kişi baxış və meyarlarının durduğunu göstərə bilərik. Həmçinin qeyd edilmişdir ki, kulturologiyada kişi dominantlığı iki modeldə verilir. Birində Lakanın “fallosentrizminin” anlatdığı kimi, kişi konsentrik modelin vahid mərkəzini əmələ gətirir. O biri modeldə isə dominantlıq geniş yayılmışlıq kimi təzahür edir və maskulinliyin özünü hər yerdə biruzə verdiyini təsdiqləyir.

Post-strukturalistlər hətta humanizmi onda qınayırlar ki, mərkəzə subyekti (özü də daha çox andro-subyekti, yəni kişi subyektini) qoyaraq, onun ətrafına çoxlu repressiv institutlar düzmüşdür. Cəmiyyətdə qadınlara qarşı xeyli repressiv mühitin mövcudluğunu nəzərə alaraq, dissertasiyada repressivlik fenomeni üzərində də dayanılmışdır. Bu zaman H. Markuze, M. Fuko və R. Bart kimi görkəmli nəzəriyyəçilərin ideyalarına müraciət olunmuşdur.

Mədəniyyətin kişi-mərkəzçiliyin (andro-sentrizmin) epistemoloji funksiyalarına da toxunulmuşdur. Qeyd edilmişdir ki, elm sistematik olaraq qadını bilik əldə edən subyekt mövqeyindən çıxarır. Bu halda kişi mədəniyyətlə, biliklə, elmlə, rasionallıqla assosiasiya olunduğu üçün qadın kişiyə münasibətdə başqası olaraq təbiətlə, hissiyyatla əlaqələndirilir. Nəticədə belə çıxır ki, qadın yalnız elmi biliyin obyekti, hədəfi ola bilər, subyekti yox.[25]

Dissertasiyada kişi-mərkəzçiliyin bir növ alternativi olan matriarxat nəzəriyyələrinə də baxılmış, isveçrəli Yakob Baxofen və amerikalı etnoqraf Henri Morqanın konsepsiyaları təhlil edilmişdir. Baxofenin matriarxatı çoxalan, bioloji, irrasional, hissiyyatcıl dünya ilə eyniləşdirdiyi göstərilmiş, İlahə mifləri əsasında qadın psixologiyasını və sosial xarakterini izah etməyə çalışmışdır. Morqan isə nəsli ana xətti ilə hesablanan qəbilələrdə matriarxatın ilkinliyi nəticəsini çıxarmışdı.

Tədqiqat gedişində "qadın" anlayışı ilə mahiyyətcə bağlı olan "bakirəlik" institutu patriarxat dönəminin formalaşması kontekstində izah olunmuşdur. Qeyd edilmişdir ki, bakirəlik Ana xaqanlığı dövründə qadının əxlaqını göstərən şərt ola bilməzdi, o, bioloji göstərici idi. Yalnız patriarxat dövründə bakirəlik tələbi kişilərin qadın üzərində hakimiyyətini bildirməklə yanaşı, monoqam, yəni təkarvadlılıq ailə fenomeninin vacib şərtlərindən birinə çevrildi. Həmçinin patriarxat ənənələrinin zəifləməsi ilə bakirəlik institutunun təsir dairəsinin daraldığına da aydınlıq gətirilmişdir.

Yarımfəslin yekunu olaraq qeyd edilir ki, XIX əsrin II yarısından etibarən həm matriarxat, həm də patriarxat nəzəriyyələri mədəniyyəti yeni, gender mərkəzçiliyi modelində təqdim etmişdir. Bu zaman aydın oldu ki, matriarxatda insanlar, icmalar arasında ziddiyyətlər daha yumşaq formada olubmuş, deməli, mədəniyyətə qanlı savaşları patriarxat gətiribmiş. Feministlər irəli sürdülər ki, matriarxatda dini duyğuların və ibadətin əsasında qorxu yox, həyata görə minnətdarlıq dururmuş. Patriarxat isə dini duyğularda qorxu, itaət, mütilik hisslərini istismar edibmiş.

---

[25] Malson, H. The thin woman: feminism, post-structuralism and the social psychology of anorexia nervosa / H. Malson. – London: Routledge, – 1998. – s. 36-39

**“Mədəniyyətdən görünən gender dünyası və feminist nəzəriyyələrdə mədəniyyət (XIX - XX əsrlər)”** adlı ikinci yarımfəsildə mədəni fenomenlərin müxtəlif nəzəri rekonstruksiyaları nəzərdən keçirilir. Qeyd edilir ki, Qərbi Avropada qadın fenomeninə münasibətin hörmətəlayiq istiqamətdə dəyişməsinin əsasında Kurtuaz dövrünün təsirini görmək olar. Məhz Kurtuaz ənənəsində Gözəl Xatun (Donna) “taxta” çıxarılmışdı. Patriarxal mədəniyyətdə kişinin qadın qarşısında yumşaqlığı, sayğılı davranışı əsl kişi xarakterinə yaraşdırılmadığı halda, bu Patriarxallığın içində formalaşmış Kurtuaz kodeksi anti-patriarxal alternativlə öz fərqinin müəyyənliyini tapmışdı.[26] Viktorian dönəminin gender təkamülü gedişində qadın idealı önəm qazansa da, qadın cazibədarlığı mədəniyyət modelinə buraxılmır. Viktorian mədəniyyətinin əsas situasiyasını gender anatomiyasına etibarsızlıq kimi göstərmək olar. Bu etibarsızlıqda ən təhlükəli tərəf qadının daxili bioloji prosesləri idi. Viktorian mədəniyyətinin əsas situasiyası bu bioloji etibarsızlığı aradan götürmək üçün xüsusi ideologiya, xüsusi etika və estetika, bir sözlə, xüsusi mədəni yasaqlar formalaşdırıb işə salmaq idi. Bu prosesə romanlar, modalar, qadın, ailə idealı, uşaq tərbiyəsi və s. cəlb olunmuşdu ki, mədəniyyətin gender biologiyası üzərində reperessiv aksiyaları alicənab, mənəvi məqsədlər və mənalarla əsaslandırsın.

Viktorian mədəniyyətində dövrün mədəni-gender situasiyasını gözdən keçirəndə gördük ki, gender münasibətlərinin rəsmi mədəniyyətə girişinə qoyulan yasaqlar əslində dünyanın müxtəlif guşələrindəki patriarxal mədəniyyətlər üçün səciyyəvi idi. Patriarxallıq güclü olan hər yerdə qadının cazibəsini nəzərə alaraq mədəniyyətlər elə nizamlayıcı və əxlaqi situasiyalar törədirdilər ki, bu təhlükə minimuma ensin. Hətta belə bir qanunauyğunluq sezmək olar: mədəniyyətdə ənənəvilik nə qədər çoxdursa, təhlükəli sayılan nəsnələrin sayı da o qədər çoxalır.

Yarımfəsildə Viktorian mədəniyyəti çərçivəsində və İslamda qadına bənzər münasibətə də diqqət yönəldilmişdir. İslamda gerçək, yəni fiziki hicab Viktorian mədəniyyətində mənəvi hicabla əvəzlənmişdi. İkisini də tutuşduranda fərq və eynilikləri

---

[26] Рябова, Т.Б. Женщина в истории Западноевропейского Средневековья / Т. Рябова. – Иваново: Юнона, – 1999. – s. 19

qarşılaşdırmaq mədəniyyətşünaslıq baxımından maraqlı epistemoloji perspektivlər açır. Viktorian mədəniyyətinin qadın üzərinə qoyduğu nizamlayıcı basqıların kökündə Həvva mifologiyasının yozumunun xristian ənənəsinin dayandığını görürük. Lakin zaman keçdikcə Ana Məryəm motivi aktuallaşdıqca, qadın Həvvanın kölgəsindən çıxmağa başladı. Bu xətt XIX əsrdə qadın haqlarının, azadlıqlarının tanınması uğrunda hərəkata və nəticədə Viktorian mədəniyyət modelinin dağılmasına gətirib çıxardı. Tədricən qadınla bağlı riqorist əxlaq kilsələrə, monastrlara, müəyyən icmalara (məsələn, marmonlara), kəndlərə sıxışdırılmış, mədəniyyət mərkəzlərində, modernləşmə yolunu tutmuş ölkələrdə isə qadın azadlığı, qadın emansipasiyası ideyası qalib gəlməklə dünyada yeni gender situasiyası yaratmşıdı.

XX əsr mədəniyyətinin dünya modelində qadına yanaşma dəyişir. Bu vəziyyətin dəyişməsini biz Viktorian mədəniyyətinin böhranında, modernizmin ənənəvi dəyərlərə qarşı qiyamında, feminist hərəkatın nəticələrində izləyirik. Modernləşmə prosesləri gedişində azad, emansipasiya olunmuş qadın təkcə Avropada, Amerikada yox, Şərqdə də meydana çıxmağa başladı. Uyğun olaraq qadınlarla bağlı öncəki mədəniyyətlərdə qapalı qalmış mövzular, problemlər ərsəyə gəldi.

Dissertasiyada Həvvanın ilkin günahı haqqında xristian sxolastikasının mühüm müddəası da araşdırılmış (yeri gəlmişkən, xristianlığın tarixi boyu qadını alçaldan və qadını reablitasiya edən xətlər paralel getmişdi, hərçənd ikinci xətt daha zəif idi), bu zaman belə bir qənaət vurğulanmışdır ki, İslam dünyasında qadınlarla əlaqədar patriarxallıqdan gələn etibarsızlıq, şübhə izlənsə də, müsəlman filosoflarının və ilahiyyatçılarının Həvvanın timsalında qadının əzəli günah məsuliyyətini irəli sürən və ya bunu rədd edən iki rəqib düşərgəyə bölünməsini təsəvvür etmək mümkün deyildir. “Quran-i-Kərim” də bəyan edirdi ki, ilan birinci Həvvanı yoldan çıxarmışdı. Lakin bu faktın əsasında qadının əsas günahkar və ya ruhsuz olması haqqında spekulyativ mühakimələr müsəlman fəlsəfi-teoloji şüuruna və diskursuna yad idi. Müsəlman aləmində heç bir düşüncə adamı qadınları bəşəriyyətin İblis qarşısında “ən zəif nöqtəsi” adlandırmamışdı və ona görə də qadına insanlığı günahlara yoluxduran məxluq kimi yanaşmamışdı. Amma təbii ki, müsəlman

cəmiyyətlərində patriarxal düzən şiddətləndikcə qadının vəziyyəti də müvafiq transformasiyalara uğramışdı.

XIX-XX əsrin əvvəllərindən Qərbdə qadın azadlıqlarına nail olunmasının nəticələri yerdə qalan dünyada, xüsusilə xeyli müsəlmanın qavrayışında sərbəst, asanlıqla zina edən xristian qadını imicini yaratmışdı. Bunun parlaq timsalını Mirzə Fətəlinin "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah" pyesində görmək olar. Orada qısqanc azərbaycanlı qadınları Parisin qadınlarını əxlaq baxımından pozğun təsəvvür edirlər.[27] Bununla beə, Azərbaycan ənənəvi mədəniyyətinin süzgəcindən ləkəli görünən Avropa qadını Mirzə Fətəlinin pyesində və Şahbaz bəyin gözündə Şərq qadınının geriliyin açıb göstərən vasitəyə çevrilir.

İslam və eləcə də başqa Şərq dünyalarında ailə fenomeni öz patriarxallığını xeyli təkidlə saxladığı üçün qadın ana kimi, zövcə kimi, atanın namusunu təhlükəyə salmayan övlad kimi Şərq insanı üçün çox əziz və dəyərlidir. Ona görə də Şərq insanı bu sevimli qadın imicinə Qərbdən təhlükə görəndə daha asanlıqla anti-Qərbçi olur. Halbuki şərqli üçün tərbiyəsiz, abırsız görünən XX əsrin emansipasiya olunmuş müasir qadını əslində xristianlığın yox, sənaye dünyasının məhsuludur; Viktorian, Katolik, Pravoslav əxlaqı göstərir ki, belə bir obraz ənənəvi dindarlığın bütün qollarında narazılıq doğururdu. Bu mənada orta əsr xristianlığında qadına münasibət şəriət ideologiyası ilə yaşayan müsəlmanlara daha doğma idi və hətta bəzi məqamlarda daha riqorist, yəni daha sərt idi.

Qərbdə və Şərqdə qadınlara münasibətdə yer almış iki stereotipin (həddən ziyadə sərbəsliklərin verildiyi qərbli qadın və kölə həyatı sürən şərqli qadın) təhlili söyləməyə əsas verir ki, hər iki stereotip etnoqrafik təəssüratlardan və ya başqa mədəniyyətlər haqqında nəzəri araşdırmalardan doğmayaraq, adi gündəlik şüurla əlaqəli idi. Məsələn, müsəlmanlarda bir kişiyə dörd zövcə icazə verilirsə, deməli, qadın kişinin dörddə birinə bərabər edilir. Buradan da fikir yaranırdı ki, İslam dünyasında qadınlar aşağı, yarmıçıq məxluq vəziyyətindədirlər. Müsəlmanlara isə elə gəlirdi ki, əgər qadın yaşmaqlanmırsa, deməli, sərbəstdir.

---

[27] Axundov, M.F. Əsərləri: [3 cilddə] / M.F. Axundov. – Bakı: Elm, – c. 1. – 1987. – s. 62

Dissertasiyada Əhməd bəy Ağaoğlunun islamda qadının vəziyyətinə dair baxışlarına da münasibət bildirilmişdir. [28] Görkəmli Azərbaycan mütəfəkkiri göstərmişdi ki, İslamda qadınların elə haqları tanınır ki, hətta çağdaş Fransada belə onlar tam tanınmamışdır. Ağaoğlunun fikrincə, erkən İslamda təsbit olunmuş qadının mülki və ictimai haqları sonrakı yüzilliklərdə, xilafət dönəmində tədricən aradan qaldırılmışdır.

**“Mədəniyyət semiotik proseslərdə əsas amillərdən biri kimi”** adlı ikinci fəsil iki yarımfəsildən ibarətdir. **“Mədəniyyətin dinamik inkişafında generativ (törədici) və semantik proseslər”** adlanan birinci yarımfəsildə mədəniyyətin dinamik planda öyrənilməsində semantik törədiciliyin yerinin və funksiyasının açılmasına çalışılmışdır ki, sonrakı bölmələrdə qadın fenomeninin bu prosesdə rolunu müəyyənləşdirmək mümkün olsun.

Biz öz tədqiqatımızda belə bir müddəadan çıxış edirik ki, “mədəniyyət” anlayışının eydetik şəkildən alınmış statik mənası ilə kifayətlənməyərək, bu məfhumun məzmununu dinamikada işləmək lazım gəlir. Ona görə biz olanların donmuş və ya dayanıqlı durumunu bildirən “cisim” və onları kəsintisiz sürəklilikdə götürən “hadisə” konseptlərini də nəzərdən keçiririk. Qeyd edirik ki, “mədəniyyət hadisələr sistemi, proseslər dünyası” və “mədəniyyət əşyalar, dəyərlər, cisimlər toplusu kimi” antitetik söz birləşmələrindən açılan məqamlar mədəni fenomenlərin mahiyyətini daha dolğun anlamağa yardım edir. Bu mənada semantik törədicilik (generativlik) planında mədəniyyəti açmaq bizə mədəniyyətlə bağlı gündəlik şüurumuzu yenərək, onu elmi şüura çevirmək imkanı verir.

Qənaətimizə görə, mədəniyyətin elmi, dini, estetik və b. sahələrə bölünməsi prosessuallığın modelləşdirilməsinə xidmət edir. Səbəb odur ki, biz dini və bədii mədəniyyətləri ayıranda, yəni onları mədəniyyətdə iki fərqli alt sistem kimi göstərəndə onların bir-birinə təsirlərinin differensiallaşmış “hərəkət xətlərini”, kanallarını alırıq: bir təsir kanalı mədəniyyətdən onun alt sistemlərinə gedir. O biri təsir kanalı isə bu alt sistemlər arasında hərəkət edir. Üçüncü təsir kanalı alt sistemlərdən mədəniyyətin bütövünə qayıdır. Dissertasiyada

---

[28] Ağaoğlu, Ə.H. İslama görə və İslamda qadın // – Bakı: Ulduz, – 1990, №3, – s. 68-80

mədəniyyətdən alt sistemə, axırıncıdan isə mədəniyyətin bütövünə gedən şaquli, habelə qonşu mədəniyyət sahələri arasında baş verən üfiqi təsir dinamikaları maraqlı nümunələr əsasında təhlil edilmişdir.

Milli ədəbiyyata gəlincə, bizim fikrimizə görə, Kamal Abdullanın "Yarımçıq əlyazma"sı dövrümüzün Azərbaycan mədəniyyətində elm və sənət arasında iki yönlü axan informasiya dövranının fəallığından impulslar alır və ötürür. Elmi mədəniyyətin filoloji biliklər sistemi fon, kontekst olmasa, "Yarımçıq əlyazma" qavrayış çaşqınlığını salar, çünki "belə də bədii əsər olar?!" sualını törədər. Yalnız yarımçıq əlyazmalarla bağlı filologiyada aparılmış tədqiqatları, eləcə də Kamal Abdullanın özünün "Gizli Dədə Qorqud" elmi araşdırmasını bədii mətnin kontekstinə çevirəndə qavrayışda estetik həzz mexanizmi işə düşür.[29] Öz növbəsində roman əks təsir yaradaraq, filoloqlar üçün Dədə Qorqud mətnlərini qeyri-standart planda anlamağa imkan verir.

Dissertasiyada belə bir tezis vurğulanır ki, cəmiyyətin və mədəniyyətin total inkişafda olması müddəası mütləqləşdirilməməlidir. Ümumən götürüldükdə mədəniyyət müxtəlif istiqamətli hərəkətlərin məcmusudur. İnkişaf yüksək dəyərləndirilən, yaxşılığına görə arzulanan və onun üçün də ideala çevrilən hədəfə yaxınlaşmaqla, yəni bu idealı nə qədər özündə gerçəkləşdirməklə ölçülür. Geriləmə, tənəzzül isə bu hədəfdən uzaqlaşmaqdır. Bu zaman ideal anlayışı özü subyektivcəsinə qavranılır. Ona görə də patriarxal qaydaları arzu olunan, ideal kimi götürən cəmiyyətlərdə bu ideala mədəniyyəti yaxınlaşdıran hallar inkişaf sayılacaq. Ona görə də nə qədər çox qadın könüllü hicabı qəbul edirsə, mənəvi mədəniyyət o qədər irəliləmiş sayılır. Nə qədər kişi ailəsində qadın azadlıqlarının məhdudlaşdırılmasına razı olursa, o qədər çox mənəvi cəhətdən yüksək sayılır. Halbuki modernist paradiqma çərçivəsində semantik bitkinlik qazanan qərb sivilizasiyaları üçün bu hal tənəzzülə aparır, ona görə də həmin halı ideala çevirən mədəniyyətlərə aşağı dəyər verirlər.

Tədqiqatda mədəniyyətin semantik prosessuallığı ilə bağlı bəzi semiotik paradiqmalara da aydınlıq gətirilməyə çalışılmışdır.

---

[29] Əlişanoğlu, T. Mif və yazı arasında bir dünya // – Bakı: Tənqid. Net, – 2010, №7, – s. 299-302

“Qadın” sözünün forma planı, fonoloji sırası ünsiyyətdə olanların şüurunda eydetiklik prinsipinə uyğun müəyyən qadın tipini canlandırır. Kimdəsə bu qadın eydosu anasının, kimdəsə qızının və ya sevgilisinin görünüşündən alına bilər. Ancaq zaman keçdikcə “qadın” sözünün məzmunundakı eydos konkret informasiya ilə əlavə cizgilər qazanır. Beləcə, mədəniyyətdə qadın problemi üzrə araşdırmalar, təsviri sənətdə, kinoda, şeirdə qadın personajları “hazır” şəkildə dayanaraq, lazım olanda kimlərinsə şüurunda verbal qadın təsəvvürünü zənginləşdirir, təftiş edir.

Mədəniyyətdə ciddi fəaliyyət növlərindən biri dünya və mədəniyyət hadisələrini semantikləşdirməkdir. Dünyanı mənalandırmaq həm də hansı mənanın düz, yerində, perspektivli olması üstündə mübahisə etməkdir. Beləcə, mədəniyyətdə semotik müstəvidə bütün hadisələr, konkret isə qadın imici üstündə hətta qızğın mübarizə gedir. Feminist ideologiyanın ən ciddi məqsədlərindən biri “qadın” sözünə bağlanan qadın şəklini uca qadınların timsalı ilə yüksəltmək və hətta kişilər üçün necə olmağın örnəyinə çevirməkdir. Azərbaycan mədəniyyətində anaya həsr olunmuş mahnılar, şeirlər əslində qadın imicini məişətdə olan kişi etinazsızlığından və ya təcavüzündən təmizləmək üçündür.

Tədqiqat gedişində belə bir nəticəyə gəlinmişdir ki, mədəni fəallıq təkcə mədəni dəyərləri qurmaq, istehsal etmək, habelə bu dəyərləri (və ümumiyyətlə mədəniyyət məhsullarını) qavramaq və ya işlətmək olmayıb, həmçinin semantik generasiya və transformasiyadır; o, bir işarənin bir mənasına başqasını əlavə etmək, bir mənadan başqasını əldə etmək, bir mənanı müxtəlif variasiyalara, çalarlara salmaqdır. Bütün bu proseslər mədəniyyətin hər qatında, mərtəbəsində, sahəsində gedir. Məişət lətifələri, zarafatlar, şeirlər, videokliplər, fəlsəfi traktatlar, memuarlar – hamısı birbaşa öz məqsədlərinə xidmət etməklə yanaşı, işarələrə yeni mənalar, köhnə mənalara yeni çalarlar verməklə məşğuldur.

Tədqiqatımızda zəruri koqnitiv alət kimi istifadə edə bilmək üçün mədəniyyətlə bağlı işarə anlayışı konkretləşdirilmiş, konvensional, ikonik, metaforik, metonimik, indeks işarələrin fərqi göstərilmişdir. Qeyd edilmişdir ki, mədəniyyətin semiotikası mədəniyyətin xarakterini bu yöndən açmağa imkan verməklə həm də gözümüzü

işarələrin semantik generativliyinə yönəldir. İşarələrin yaradılmasına, qavranılmasına, işarələrlə müxtəlif işlərin görülməsinə, məsələn, hədələməyə, repressiya etməyə elm ümumi bir ad verib – “semiozis”. Mədəniyyət həm də semiozis məkanıdır və mədəniyyətdəki aktivliyin mühüm bir növü semiozisdir. Biz semantik törədiciliyin dörd növünü ayırd etmişik; 1) Birinci növ işarənin formasını dəyişməz saxlamaqla, onun məna yuvasına yeni anlamları artırmaq və ya həmin forma ilə başqa konnotasiyalar, assosiasiyalar yaratmaq metodundan doğur; 2) İkinci növdə yeni mənalar bir Meqa-Mənanı müxtəlif vəziyyətlərdə göstərib transformasiyalara uğratmaqdan alınır; 3) Üçüncü növ işarənin formasını azacıq dəyişməklə, onun semantikasında yeni mənalar zəncirini törədir; 4) Dördüncü növ köhnə məna üçün yeni forma tapıb, onun sayəsində bu köhnə mənanı ya çalarlarla, ya da konnotativ mənalarla zənginləşdirməkdən yaranır. Bu zaman belə bir mətləb xülasə olunur ki, necə ki, teologiyada ekzegetika və təfsirlər dəyişməz qalan verbal bildiricilərə, daha konkret, sakral diskurslara yeni mənalar verir və bu istiqamətdə semantik sonsuzluğa açılmış variantlar sərgiləyir, eləcə də sənətşünas nəzəriyyələr dəyişməz kanonları semantik variasiyalarda açaraq, mədəniyyəti mənalarla zənginləşdirir.

Araşdırmalarımız bizə belə bir nəticə çıxarmağa əsas verir ki, nəzəriyyələrin bir önəmli vəzifəsi mədəni yaddaşı, mədəniyyətin dil və mətn sistemini, mədəniyyətin işarələrini yeni mənalarla zənginləşdirməkdir. Deməli, nəzəriyyələrin semantik törədicilik funksiyası var və onun sayəsində bizim mənalar dünyamızda mənaların laylanması, müxtəlif kombinasiyalarda çulğaşması baş verir. Bizim semantik dünyamızda təkcə qeyri-elmi fəaliyyətimizin, praktiki fəaliyyətimizin yox, həm də elmi fəaliyyətimizin sayəsində mənaların ən fantastik rəqsi baş verir. Özü də bu rəqsin iştirakçıları təkcə köhnə mənalar olmur. Rəqsə hər an mədəniyyətdə yeni mənalar qoşulur. İnternet məkanı, media dünyası, kişi-qadın münasibətləri – hamısı köhnə və yeni mənaları rəqsə salan məkanlardır.

Beləliklə, insanın mədəni fəaliyyətini məna axtarıcılığı baxımından götürəndə elmi, siyasi, semiotik fəaliyyət biri o birinin əks üzü olan mürəkkəb prosesdir. Məlum oldu ki, “həqiqət və qeyri-

həqiqət" kateqoriyaları mənalar dünyasında qələbə və ya özünütəsdiq, özünü müdafiə üçün güclü silahlar verir. Bütün bu səbəbdən də semantik generasiya çox ciddi kulturoloji problem kimi mərkəzdə dayanır.

İkinci yarımfəsil **"Qadın dünyası semiotikada və ona kulturoloji yanaşma"** adlanır. Bu yarımfəsildə semiozislə bağlı mövzunun mabədi olaraq qeyd edilir ki, müasir semiotikada "semiozis" anlayışı geniş planda götürülərək, işarələrlə, mətnlə əlaqədar bütün şərh, yaradıcılıq, transformasiya proseslərini əhatə edir. Bu zaman mənaların etiologiyası ön plana çıxır. Semiozisin digər növünü biz dalğalandırıcı semiozis adlandırardıq. Birinci tip semiozisdə biz ayrıca götürülmüş sosial hadisənin semantik etiologiyasını görürük. İkinci tip semiozisdə isə hansısa hadisənin bütün cəmiyyətə dalğa kimi yayılaraq, xeyli fakta məna verməsinin şahidi oluruq.

Yarımfəsildə heyvanat aləminin timsalında məna transformasiyaları göstərilmişdir. Qeyd edilmişdir ki, kulturoloqlar, ekoloqlar, yazıçılar, fotoqraflar müxtəlif heyvanlara yeni mənalar verməklə, onlara qarşı nifrəti, aqressivliyi neytrallaşdırmağa, onlara təbiət hadisəsi kimi heyranlığı tərbiyə etməyə çalışırlar.

Semiozis prosesinin kulturoloji əhəmiyyətinin müxtəlif sosial-mədəni fenomenlər üzərindən açılmasına çalışılmışdır. Biz Kanada alimi Herbert Marşall Maklyuenin ardınca onun "Quttenberq dünyası" kimi işarələdiyi kitab çanını ictimai şüur və mədəni sferada doğurduğu inqilabi dəyişiklikləri nəzərdən keçirmiş, semioloji transformasiyaları dəyərləndirmişik. Biz belə bir semiozis nəticəsinə gəlmişik ki, hər yazı və hər yaradıcılıq "şöhrət gətirən və ya gətirə bilməyən" ölçüləri ilə mənalandırılırdı.

Semiozis prosesinin kulturoloji əhəmiyyətini başqa materialda açmaq üçün ailə fenomeninin mədəniyyətdə törətdiyi məna situasiyası da nəzərdən keçirilmişdir. Bizim rəyimizcə, ailə semiozis faktına çevriləndə atanın qohumlarına da ailə üzvü mənasını verir və ona görə onları da ailəni dağıdan faktorların qarşısında sədd olmağa məcbur edir.

Dissertasiyada semiozis dalğalarının deterministik nüvəsi kimi "tərəqqi" və ya "müasirlik" (modernizm) hadisələri də

araşdırılmışdır. Bəlli olduğu kimi, M.F. Axundzadə, H. b. Zərdabi, Ə. b. Hüseynzadə, Ə.b. Ağaoğlu, M.Ə. Rəsulzadə müasirlik baxımından ənənəvi mədəniyyətin bir çox hadisələrini mənfi dəyərləndimişdilər. Bu baxımdan M.F.Axundzadənin "Con Stüart Mill azadlıq haqqında" məqaləsi diqqətəlayiqdir. O ənənəviçi (tradisionalist) mədəniyyətin bütün adamlarında və bütün sosial, əxlaqi, mədəni davranışlarında avtomatlaşmanı (indiki terminlə desək, robotlaşmanı) görürdü və bu kontekstdə Azərbaycan üçün dünyaya tənqidi münasibətin zəruriliyini vurğulayırdı.[30] Mirzə Fətəli, əslində, mədəni kodun yenilənməsinə girişməklə, sanki Azərbaycan mədəniyyətinin köhnəlmiş, Modern çağı ilə uyuşmayan anlamları və yönəlişlikləri ilə semiotik savaşa çıxmışdı. Ümumiyyətlə, XIX əsr Azərbaycan maarifçiləri, sonralar isə müasirlik, modernləşmə ideoloqları öz semiozisləri ilə ənənəvi Azərbaycan mədəniyyətinin həm dini, həm mənəvi, həm bədii sahələrində, eləcə də adi şüurlarda və mentalitetdə semantik, semiotik qəzalar (katastroflar) törətdilər. Bu söylədiklərimizi geyimlərdə və modada daha aydın müşahidə etmək olar.

Tədqiqatda semantikanın bütövlükdə və fərdi planda savaş, mübarizə, aqressivlik vasitəsinə çevrilərək, mədəniyyətin normal vəziyyətində narahatlıq yaratdığı açılmışdır. Ancaq belə "semiotik savaş" mədəniyyətlərin, keçmiş mədəniyyətlə gələcək mədəniyyətin münaqişəinə çevrildikdə söylədiyimiz mədəniyyət katastrofu başlayır. Buna örnək olaraq Osmanlı Türkiyəsində həyata keçirilən tənzimat islahatları gətirilir: Sultan II Mahmudun əmmaməni fəslə əvəzlənməsi timsalında meydana çıxan yeni semantik situasiya təhlil olunur.

Mədəniyyətdə avropalaşma islahatlarının ən ciddi nəticələri qadın geyimlərində olur. Avropalaşma semiozisin, yəni mədəniyyətin ənənəvi simvollarında mənaları və formaları dəyişdirmə aktlarını qadınlara yönəldəndə sanki mədəni zəlzələ törədir. Qadın geyimlərində olan dəyişmələr, əslində, mədəniyyətdə kişi hökmranlığına əhəmiyyətli problem, müqavimət yaradır, kişi iradəsi üçün ciddi situasiyalar doğurur. Azərbaycan kimi ölkələrdə

[30] Axundzadə, M.F. Con Stüart Mill azadlıq haqqında // – Bakı: Yazı. Ədəbiyyat dərgisi. – 2012, №1 (2), – s. 8

qadınların Avropa geyiminə keçməsi həm də yad dinlə (kafirliklə) assosiasiya edilirdi, ona görə də klerikalların hiddətinə səbəb olurdu. Ancaq bolşevik inqilabı və onun nəticəsində çadranı atmaq kimi emansipasiya aktları qadın geyiminin dəyişməsini siyasiləşdirdi – "istismarçı burjua-feodal üsul-idarəsi ilə" mübarizəyə çevirdi, yəni ona sosial-siyasi anlam verdi və bununla da geyimdəki avropalaşmanın üstündən "kafir geyimi" damğasını (stiqmasını) götürdü.

Dissertasiyada qadın geyimləri ilə bağlı semiozis prosesinin iki istiqaməti açılıb göstərilmişdir. Birinci istiqamət avropalaşmanın təsiri ilə qadın geyiminin müasirləşdirilməsi idi. İkinci istiqamət isə qadınların geyimləri ilə məna yönü yaradaraq, özlərini semiozisin başlanğıcı hesab etməsində təzahür edirdi. Qadın modernləşmə təsiri ilə geyimini dəyişməyə başlayandan sonra prosesin obyektindən subyektinə çevrilərək, artıq özü semiozis aktını həyata keçirirdi. Bu zaman onun semiozisindən, yəni mənalandırma aktından heç nə – nə siyasi hərəkat, nə mətbəx, nə əyləncə dünyası, nə nikah kənarda qala bilməzdi. Özü də femin semiozisi mentalitetə önəmli təsir göstərən prosesdir. Qeyd edilir ki, XX əsrin 70-ci illərində fəallaşmış radikal feministlərin ənənəvi ailə institutuna qarşı yönəlmiş semiotik qiyamı mentalitetdə zəlzələ effektini vermişdi.

Qənaətimizə görə, XIX – XX əsrlərin ədəbiyyatında qadın psixologiyasının ən uzaq guşələrinin təmsil olunması, bədii yolla analiz edilməsi təkcə Qərb yazarlarının istedadının nəticəsi, təkcə Qərb ədəbiyyatının təsvir sahəsinin genişliyi deyildi. Bu həm də elmi təfəkkürün, elmi mədəniyyətin bütün bölmələrə təsirinin nəticəsi kimi meydana çıxmışdı. Belə demək olarsa, Qərb mentalitetlərində gender strukturlarını qadınların xeyrinə dəyişən, yəni qadınlara yönəlik çoxsaylı mənalarla bu mentaliteti zənginləşdirən feminist fəallar müxtəlif aksiyalarla yanaşı, elmi və ya elmsayağı arqumentlərlə də öz təsirlərini yeritmişdilər.

Son on illərdə Qərb qadını mentalitetdə elə bir vəziyyət yaratmışdır ki, artıq, bir kişi modeli kişi tərbiyəsində formalaşdırıcı olmur. Ənənəvi situasiya elə idi ki, "əsl kişi" imici mentalitetdə ədəbiyyat, xalq rəvayətləri sayəsində "məskunlaşaraq", böyüməkdə olan oğlanların xarakterlərinə nüfuz edirdi. Və bu zaman oğlanlar

həmin modelə tam, bir az və ya çox dərəcədə cavab verən, yaxud da ümumiyyətlə cavab verməyən qruplara bölünürdü. Qərb mentalitetində bu dominantlıq itəndən sonra milli psixologiyada çoxlu "əsl kişi" tipləri formalaşdı və bu plyuralizm oğlan tərbiyəsində öz nəticələrini verdi.

Bu yarımfəsildə Semiramida, Nefertiti, Kleopatra kimi Qərb şüurunu həyəcanlandıran tarixi qadın personajların obrazlarının kulturoloji aspektləri də nəzərdən keçirilmişdir. Fikrimizcə, Avropa "başqası", "özgəsi" imicində Şərqi modelləşdirən zaman bu üç gözəl, effektli qadın Şərq imicinə qədim kişi-qadın münasibətlərinin yaxınlıq və digər cizgilərini qatmışdılar. Beləcə, Şərq timsalında Qərb yad dünyanı sevgi və heyranlıq dramatizmində təsəvvür etmişdi. Hər üç qadın əlahiddəliyin, yüksəlişin və enişin dramatik trayektoriyasını öz həyatlarında birləşdirmişdilər. Qərb mentalitetində onların obrazı bu trayektoriyanın qədimliyini postulatlaşdırırdı. Digər tərəfdən, Semiramida, Nefertiti və Kleopatra Avropa üçün "başqa dünyanın" gözəllərində, yəni "başqasında" özünə ideal tapmaq tələbatını təmin edirdi. Həmçinin şaşırdıcı şəkildə bu qadınlar Qərbin brend sisteminə legenda, imic verməklə semiozis işini görmüşlər.

Şərq qadınının Qərb mədəniyyətində hansı mənalar yaratmasının çox ciddi sübutu Bibliya, daha dəqiq desək, Əhdi Ətiqdir. Bibliya qadınları xristianlığın təsiri altında Qərb mənəviyyatının çox önəmli simvolları olaraq kulturoloji baxımdan müəyyən durumlara, münaqişələrə mənalar aşılamışlar. Dissertasiyada Sara, Debora (Devora), Yudif, Esfir, Ester kimi Əhdi-Ətiq qadın obrazları təhlil edilmişdir. Bu personajların xristian etikasına təsiri göstərilmişdir. Qeyd edilir ki, Avropanın sonrakı əsrlərdə xilaskar kimi qadın ortaya çıxanda və ya qadına xilaskar kimi ehtiyac yarananda Bibliya qadınları mədəniyyətdə arqument, əsaslandırıcı vasitələr kimi çıxış edirdilər.

Qərb və Şərq müqayisəsini aparanda görürük ki, Qərb Şərqin məşhur qadınlarını seçərək adları ilə mifolojiləşdirmiş, simvolikləşdirmiş və beləcə, onları semiozis deyilən mənalandırma prosesinə cəlb etmişdi. Şərq mədəniyyətinə gəldikdə, nə müsəlman, nə də hinduist və ya buddist variantlarında hansısa məşhur Qərb

qadını mənalandırma aktlarının əsasında duran, mentalitetə öz cizgilərini vuran simvola çevirməmişdi, hərçənd Osmanlı və Azərbaycan dünyasında xristian qadınlarını tanıyırdılar. Burada qadın "başqa dünyanın və mədəniyyətin" təmsilçisi kimi üç məşhur bədii əsərin fundamentini təşkil edirdi: Şeyx Sənanın sevgilisi yunan qızı, Kərəmin sevgilisi erməni qızı (Əsli) və Əlinin sevgilisi gürcü qızı (Nino). Ancaq bu qadınların tarixi prototipləri olsa belə, onlar bədii obrazlar idi. Əsərlərdə onlar sevgili kimi yüksək məna daşısalar da, Azərbaycan mədəniyyətinə başqa mədəniyyətin təsirini gətirməmişdilər. Yalnız XIX əsrdən etibarən modernləşmə proseslərinin təsiri ilə müsəlman, hinduist və buddist Şərqində maarifçi çevrələrdə "Avropa qadınının" bəlli obrazının cazibədarlığının artdığını müşahidə edirik.

**"Qadınların psixoloji tipləri və onların kulturoloji nəticələri"** adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. **"Qadınların psixoanaliz tarixi və onun kulturoloji mahiyyəti"** adlı birinci yarımfəsildə qadın dünyasının psixo-kulturoloji aspektlərinin açılmasına cəhd göstərilmişdir. İlk növbədə ruhun və materiyanın nisbəti probleminin fəlsəfədə qoyuluşuna aydınlıq gətirilmişdir. Qeyd edilmişdir ki, XX əsrə qədər idealist fəlsəfə insan şüurundan, nəfsindən kənarda olan ruhi dünyanı müxtəlif qatlara bölmüşdü. XX əsrdən Emil Dürkheym "kollektiv təsəvvürlər" termini ilə ruhun fərdi psixologiyadan kənarda olan ancaq insanlarla sıx bağlı qatını açdı. Karl Yunq konkret insan ruhuna Ruh aləmindən təsir edən başqa bir qatı tapıb adını "kollektiv şüursuzluq" qoydu. Freydo-marksist E. Fromm göstərmişdi ki, elmin "psixika" adlandırdığı ruh başa salınmaqla insanın "mülkiyyətində olan" hadisə kimi təsəvvür olunur. Əslində isə ruh insansız aləmə açıq qapıdır və bu qapı zaman-zaman oradan bizə anlaşmaz insansız təsəvvürlər, informasiyalar axıdır və insanı öz məqsədləri üçün işlədir.[31] Fikrimizcə, psixologiya elmi bilinməzliyin qaranlığında olan ruh "səltənətindən" fərqli olaraq maddi aləmlə, fizioloji sistemlə bağlı ruh sahəsini öyrənir. Çünki ruhun məhz fiziologiya, maddi aləm, mədəniyyət ilə ünsiyyət zolağında "psixika" qığılcımlanır və deməli,

---

[31] Фромм, Э. Психоанализ и этика / Э. Фромм. – Москва: Республика, – 1993. – s. 266

psixologiyanın predmeti yaranır. Biz ruhun məkani təzahürünü, elə məkanın özünü də o biri qatlardan ayırmaq üçün “materiya” terminindən istifadə edirik. İndi bu modeldə, bu konstruksiyada qalsaq, söyləyə bilərik ki, ruhun məkan və zaman daxilində təzahürü psixoloji olaraq baş verir. Erix Frommun sosial xarakter nəzəriyyəsindən belə qənaətə gəlmək olar ki, cəmiyyət və insan psixologiyası arasında determinist əlaqə heç də bir istiqamətli olmur. Cəmiyyət özünə lazım olan insan tipini “istehsal etmək” üçün xüsusi mexanizm formalaşdırır.

Yarımfəsildə vurğulanır ki, psixika ruhun hansısa fizioloji-bioloji sistemdə təzahürüdür. Aristotel bunu göstərmək üçün **entelexiya** terminindən istifadə etmişdi. Bütün canlılarda maddə müəyyən məqsədlər üçün strukturlaşıbsa, məsələn göz görmək üçün, mədə həzm etmək üçün, deməli, həmin maddədə entelexiya var. Entelexiya maddənin müəyyən məqsədləri yerinə yetirmək üçün forma almasıdır. Entelexiya anlayışına istinadla, biz aşağıdakıları güman edirik: Birincisi, ruh insan beyni ilə birləşəndə psixikanı əmələ gətirir. İkincisi, bu ruh qadın və kişi cinsləri ilə birləşəndə gender fərqlərinin yaratdığı fərqlərdə psixi fərqləri verir. Buna biz qadın və kişi psixologiyalarının fərqləri deyirik. Milli psixologiyada millətin biofizioloji və etnik struktur şəbəkəsinə ruh sirayət edəndə (və ya çökəndə) milli psixologiya alınır. Hər dövrdə cəmiyyətin strukturunu milli ruhdan özünə uyğun sosial xarakterlər və psixoloji tiplər almış kişilər və qadınlar formalaşdırır. Yarımfəsildə qadın psixologiyası həmçinin ruhun qadın biofiziologiyası ilə rastlaşanda aldığı forma kimi səciyyələndirilir. Bu zaman onda hələ milli, sosial-kontekstual konkretləşmə olmur.

Biz göstəririk ki, artıq Freyddən qabaq Qərbin patriarxallıq izlərini daşıyan, yəni maskulinliyi saxlayan mədəniyyətində kişinin üstünlüyü və qadının atanın, qardaşın, ərin iradəsi altında olması prinsip səviyyəsində hökm sürürdü. Freyd səhnəyə çıxanda həmin prinsipi psixoanalizin paradiqmaları əsasında elmi konseptuallaşdırdı və beləcə, onu Qərb üçün daha tutarlı etdi.

Tədqiqatda Z. Freydin qızların psixologiyasının “anatomik naqislikdən” gələn natamamlıq duyğusu əsasında formalaşması haqqında fərziyyəsi şərh olunmuş, bu ideyanın Erix Fromm, Anna

Freyd, Karen Xorni, Karl Yunq kimi adeptlərinin mühakimələri təhlil edilmişdir. Belə bir nəticə vurğulanır ki, Freyd və onun davamçıları qadınlarda öz həmcinslərinə etibar olmamasının səbəbini Elektra kompleksi ilə bağlayır. Qız uşağının "bioloji paxıllığına" görə özündən narazı qalması bir az sonra bütün qadınlardan narazılığa gətirib çıxarır. Biz Freyd və onun ardıcıllarının mazoxist adlandırdıqları qadın psixologiyasını formalaşdıran bioloji faktorların əbədiliyi haqqında fikirləri ilə razılaşmayaraq, göstərdik ki, qadın haqları tapdalanan, oğlan uşağı üstün tutulan cəmiyyətlərdə qızların biologiyadan gələn natamamalıq hissləri mədəniyyət amilləri ilə daha da dərinləşir. Həmçinin biz Culiet Mitçellin bu fikrinə əsaslanırıq ki, qadınların təzyiq, repressiya, basqı, boyunduruq altında saxlanmasının əsas səbəbi insan psixologiyalarının dərinində gizlənir.

Beləliklə, biz konkret materialda Freydin qadın psixologiyası ilə bağlı irəli sürdüyü ideyaların feminizmdə yaratdığı rezonansı gördük. Bu rezonansın bir dalğası psixoanalitik feminizmin yaranmasında iştirak edərək, onun platformasını törədici ideyalarla təmin etmişdi. Bununla yanaşı, qeyd edilmişdir ki, gender və qadın problemi ilə bağlı freydist və feminist nəzəriyyələrin başlıca nöqsanlarından biri bu qəbil araşdırmalarda səbəb-nəticə əlaqələrinin mexanikanın qanunlarına heyranlıq dövründəki kimi anlaşılmasıdır.

Dissertasiyada Karl Yunqun insanların psixoloji tiplərini aşkarlamağa yönəlmiş nəzəriyyəsi də təhlil edilmişdir. Yunqun cızdığı portretlərdə həlledici iki tip vardı, introvert, yəni daxilə yönəlmiş, ekstravert, yəni xaricə yönəlmiş insan tipləri.[32] O, qadınlar üçün ekstravertliyi xarakterik sayırdı. Bu qadın tipində o, emosionallığı əsas cəhət kimi göstərirdi. Beləliklə, Yunq qadınları fikirlə hissiyyatlarına qalib gələ bilməyən məxluq kimi açırdı. Fikrimizcə, Yunq ekstravertlik haqqında çox maraqlı nəzəriyyə qursa da, bu nəzəriyyənin əsasında alınan qadın portreti ədəbiyyatda və adi fikirlərdə qadınlar haqqında gəzən tipik təsəvvürdən çox da uzağa getmir.

---

[32] Юнг, К.Г. Психологические типы / К.Г. Юнг. – Москва: Государственное издательство, – 1924. – 96 с.

Biz, belə bir qənaətə gəlirik ki, feministlər cinslərin psixologiyası və başqa xüsusiyyətləri ilə bağlı problem qoyanda darvinizmə və freydizmə qarşı çıxmaq üçün sosial mühitin rolunu qabardırdılar, hərçənd bu mühiti marksistlər kimi "maddilik" termini ilə materiyalaşdırmırdılar. Ona görə də sosial mühitdən danışanda sinfi münasibətləri önə çəkmir, ictimai-iqtisadi formasiyanın dəyişmə qanunlarını, eləcə də dialektikanın qanunlarını epistemoloji alətə çevirmirdilər. Hərçənd marksist sosiologiyanın dolayı təsirindən, əlbəttə ki, kənarda qala bilmirdilər.

Qeyd edirik ki, mədəniyyətdə "qız" və ya "qadın" anlayışına cavab verməyən, yəni davranışda bu məfhumda nəzərdə tutulmayan hərəkətlər edən qızlara və qadınlara müxtəlif cəzalar nəzərdə tutulur. Belə demək olarsa, qadın psixologiyasında olmağa qadını həm də mədəniyyət məcbur edir. Deməli, qadınlarda qadın psixologiyası təkcə təbii hal deyil, həm də onların məcburən salındığı maska tipli haldır.

Dissertasiyada feministlər tərəfindən patriarxat basqı aləti kimi dinin tənqidinə də toxulmuşdur. Feminitslər ənənəvi dinləri araşdırıb aydınlaşdırmışlar ki, onlar qadınların özəl dini inam təcrübəsini və qadınların dinlərini ifadə etmək ehtiyaclarını  saya salmır. Dünya və milli dinlərin hər birində qadınlar ikinci plandan olan məxluqlar kimi cürbəcür şəkildə alçaldılır. Bizim araşdırmalarımız monoteist dinlərə qarşı feminist tənqidinin xeyli haqsız tərəfini aşkara çıxardı. Fikrimizcə, monoteist dinlər ilkində qadın psixologiyasını və şəxsiyyətini nəzərə almaqdan başlamış, sonda isə yeni qadın psixoloji modelini yaradıb onları bu modeldə özlərini əyan və bəyan etməyə məcbur etmişdi. Bütün dünya dinlərində qadın psixologiyası ilə hesablaşma mərhələsindən sonra qadına basqılar mərhələsi gəlsə də, onların hamısında ilahi eşq məsələsində qadının ciddi təsiri qalmışdı. Çağımızda, xüsusilə Qərbdə qadınların psixologiyası monoteist dinlərdə təkcə reablitasiya olunaraq danlaqdan qurtulmadı. Artıq, qadınlar öz psixoloji kompleksizlikləri ilə həm dini proseslərin, həm də kulturoloji semiozisin aktiv subyektinə çevrilmişlər. Feministlər diqqəti monoteist dinlərin maskulinliyinə cəlb edərək, kişi-mərkəzçilikdən qurtulmanı bir şərt kimi irəli sürürlər.

Bu mövzu özünün sonrakı inkişafını **"Qadın psixologiyasının mədəniyyət kontekstində öyrənilməsində əsas paradiqmalar"** adlı ikinci yarımfəsildə tapır. İlk növbədə incəsənətdə qadınların psixoloji portretləri məsələsi şərh olunur. Müsəlman Şərqindən fərqli olaraq, Avropada İntibah ərəfəsi və İntibahdan sonrakı boyakarlıqda – kişilər qədər olmasa da, – hər halda xeyli sayda qadın psixologiyasının zəngin çalarlarını əks etdirən portret əsərləri vardı. Bununla yanaşı vurğulanır ki, həm boyakarlıqda, həm ədəbiyyatda, kinoda, teatrda parlaq kişi obrazlarının sayca çoxluğu və adətən qadın obrazlarının kişi qəhrəmanlarına sanki "texniki" əlavə olaraq yaradılması sənətin içində maskulin tendensiyanın daha güclü olmasından irəli gəlirdi. Çox vaxt kişi taleyi mərkəzdə, fokusda durmuş, qadın isə bir az orbitə, periferik məkana çıxarılmışdı. İncəsənət tarixi daha çox patriarxal mədəniyyətin formalaşdırdığı yaxşı ana, gözəl zövcə, əsl sevgili ideallarına cavab verən parlaq əsərlər ortaya qoymuşdu. Başqa sözlə, incəsənət qadınlarda kişi dəyərlər sistemini formalaşdırmışdı.

Sənət tarixinin qadın xarakterini cızmaqda bütün nailiyyətlərinə baxmayaraq, fikir tarixində qadın psixologiyası yalnız XIX əsrin sonlarından, sözün müstəqim mənasında, təhlil obyektinə çevrilmişdi. Həmin vaxtlar meydana çıxmış freydizmin təklif etdiyi düşüncə metodu öncələr mədəniyyəti qadın haqqında zəngin informasiyalarla təmin etsə də, sonda tükənmişdi. XX əsrdə qadın fenomenini öz araşdırma predmetinə çevirmiş müxtəlif feminist konsepsiyalar da meydana gəlir, bir müddət populyar olur, lakin zaman keçdikcə epistemoloji darlıq sərgiləmək səbəbi ilə ortadan qalxırdı. Tezliklə feminizmdə yeni və evristik paradiqmaların formalaşdırılmasına keçildi. Feministlər postmodernistlərdən dekonstruksiya paradiqmasını götürməklə, bütün fəlsəfi-kulturoloji nəzəriyyələrin gizli məqsədlərini faş edərək onların dolayı şəkildə patriarxallığa xidmətini açmışdılar. Məhz dekonstruksiya paradiqması onları belə bir fikrə gətirmişdi ki, nəzəriyyə təkcə dünyanı əks etmir, yəni dünya realiyalarına istinadlar sistemini qurmur. Ona görə də qadın hərəkatı çərçivəsində yaradılan nəzəriyyələr özü də qadınların məqsədinə xidmət edən dinamik alətlər olmalıdır.

Dissertasiyada qeyd edilir ki, feminizmin kökü XVIII əsrin liberal ideyalarına gedib çıxır. Zaman keçdikcə isə feminizmdə sosialist ideyaların təsiri özünə uyğun qolu formalaşmışdı. Bəzi elmi paradiqmalar bütün feminist cərəyanlarda təkrarlanır. Bu universal paradiqmaları nəzərə alaraq Eymi Mazur yazır ki, feminizm çoxlu məsələləri, debatları, ideya variasiyalarını, hərəkət taktika və strategiyalarını törədən konseptdir.[33] Feminizmin bütün qollarında təkrarlanan paradiqmalara görədir ki, qadını hüquq şəbəkəsində açmaq hər cərəyanda var. Ancaq bu hüquqların prioritetlər baxımından vurğulanması, hansı perspektivlərə proyeksiya edilməsi cərəyanlarda müxtəlifdir.

Fəlsəfi etikanın predmeti mənəviyyat və ya əxlaqdır. Bu etika hakimiyyət məsələsini mərkəzə qoymur, yəni etika ilə bağlı araşdırmalar aparanda siyasi aparatdan az istifadə edir. Halbuki feminist etika əxlaqda hakimiyyətin gizli iştirakını gördüyü üçün onu ifşa etməyə can atır. Feministlər ideyalar mübadiləsi prinsipində postmodernizmdən dekonstruksiya paradiqmasını götürüb onun əsasında əxlaq normalarında yüksək mənəviyyatın təcəssümü pərdəsinin arxasında qadınları idarə etmək, qadınları boyunduruq altında saxlamaq kimi repressiv izləri "tapmışdılar".

Liberal feminizmin doğurduğu paradiqmaların dövrümüz üçün produktivliyini çox ciddi faktlar danılmaz edir. Onlar xeyli beynəlxalq sənədlərin yazılıb ortaya çıxarılmasına, qurumların yaradılıb inkişaf etdirilməsinə təkan vermişdir. Bu cərəyan qloballaşma axınını əngəlləyən patriarxal sədləri silkələyən amillərdən önəmlisidir. Bu önəminə görə də müxtəlif regionlarda özünə müxtəlif ideoloji düşmənlər qazanır.

Dissertasiyada gətirdiyimiz materiallar liberal feminizmin paradiqmalarının qadın problemində hansı zənginlikləri açdığını göstərir. Bununla yanaşı, eqalitarizmin mahiyyəti ilə bağlı yeni sualları aktuallaşdırır. Bu suallar sırasında pozitiv ayrı-seçkilik, gender bərabərliyində kişi standartının ön plana çıxması əhəmiyyət qazanır. Bunuunla əlaqədar deyə bilərik ki, məsələn, parlament seçkilərində pozitiv ayrı-seçkilik qadınlara kvota ayrılması onlarda

[33] Mazur A.G. Theorizing Feminist Policy / A. Mazur. – Oxford; New York: Oxford University Press, – 2002. – s. 2

deputat seçkilərində mübarizliyi inkişaf etdirməyə imkan vermir. Həmçinin gender bərabərliyində kişi standart, etalon kimi götürülür və qadının haqqı bu standarta çatanacan inkişaf etdirilir. Feministlər isə elə bir dünya uğrunda çarpışırlar ki, orada heç bir cins etalon, standart olmasın.

Dissertasiyada "İslam feminizmi" fenomeninə də toxunulmuşdur. Bir tərəfdən, bu məfhum libeal feminizmin təsiri altda müsəlman dünyasında yaranmış qadın hərəkatını nəzərdə tutur və eyni zamanda İslam dünyasında femin problemlərini araşdıran tədqiqatları əhatə edir. O biri tərəfdən isə o, qadın problemlərində müsəlman dünyasını "müdafiə etmək" üçün liberal feminizmlə ideoloji mübarizəyə girişmiş hərəkata verilmiş addır. Beləliklə, liberal feminizmin qazandığı nəticələr mürəkkəb mənzərə yaradır, yəni həm Qərbdə və Şərqdə qadınların azadlıq, emansipasiya hərəkatının əsas xəttini inkişaf etdirir, həm də Qərbdə və Şərqdə öz opponentlərini törədir.

Tədqiqatda marksist və sosialist feminizm də şərh olunmuşdur. Tarix meydanında birinci olaraq sosialist feministlər peyda olmuşdu və liberal feminizmlə müəyyən mənada həmyaşıd idi. Marksist feministlər isə yalnız sonralar qruplaşaraq, sosialist feministlərin özlərini həsr etdiyi məqsədlərə guya daha effektli yol təklif etmişdilər: bu yolu "inqilabi düşüncə" paradiqması aşkar edir. Sosialist feministlər solçu partiayalarda çalışaraq qadının iqtisadi müstəqilliyi, sağlamlığı, abort hüququ, təhsili uğrunda mübarizə apardılar. Ancaq qadın hərəkatının bu cərəyanı bəzi hallarda öz diskurslarını marksist paradiqmalarda qursa da, etiraf etməli oldu ki, kişilərin dominantlığı sinfi bərabərsizlikdən doğmur. Gender bərabərsizliyi sinfi münasibətlərdən kənar bir haldır. Bu mənada qadın-kişi müınasibətlərini sinfi münasibətlər terminində təsvir və izah etmək məsələyə vulqar yanaşmadır. Marksist feminizmin və onun paradiqmalarından təsirlənmiş radikal feminizmin paradiqmatik sərtliyinə baxanda sosialist feminizmin islahatçı ruhu xeyli yumşaq metod və düşüncə tərzi kimi aydın olur.

Yeri gəlmişkən, radikal feministlər marksizm nəzəriyyəsini götürərək, orada "proletariat"ın yerinə "qadın"ı qoymaqla, onun məruz qaldığı basqıları göstərməyə çalışmışlar. Proletariatın birləşməsi sayəsində sinfi şüurun inkişafını mümkün sayan Marks

kimi, adları çəkilən radikallar da qadınların birləşməsi ilə qadınlıq şüurunun inkişafı məsələsini qoymuşlar.

Dissertasiyada radikal feministlərin dekonstruksiyalar, adi qadınların bir mərhələdən digərinə keçidini öyrənən "tranzisional tarix" paradiqması, qadın problematikasını ekoloji həssaslıqla uzlaşmada götürən eko-feminist yanaşmalar haqqında ətraflı məlumat verilir. Bu yarımfəsildə həmçinin K. Yunqun arxetiplər nəzəriyyəsinə bir daha qayıdılır, onu feminist planda yaradıcıcasına tətbiq etmiş Cin Şinoda Bolenin konsepsiyası şərh olunur. Bolenin nəzəriyyəsinin yeniliyi onda idi ki, Antik yunan mifologiyasının bütün önəmli tanrıçalarını, yəni qadın ilahələrinin hər birini arxetip elan etmişdi. Nəticədə həmin ilahənin xarakteri, psixologiyası və taleyi uyğun arxetipin xarakteristikasını vermişdi. Cin Bolenin arxetiplərdən çıxış edərək qadınların mədəniyyətdə və sosial məkanda hansı ideallar, hansı enerji və funksiyalarla çıxış etməsini açması feministlər üçün xüsusi paradiqmaya çevrilərək, oxşar konseptual axtarışlara təkan vermişdi. Onun nəzəri mülahizələr və konstruktlar bizim sonrakı fəslimiz üçün də metodoloji perspektivlər açır.

**"Azərbaycan mədəniyyəti və kulturoloji dünyagörüşündə qadın probleminin həlli yolları"** adlı dördüncü fəsil iki yarımfəsildən ibarətdir. **"Azərbaycan mədəniyyətində qadın fenomeni və onun müxtəlif təzahür formaları"** adlanan birinci yarımfəsildə milli mədəniyyətimizin müxtəlif tarixi-sosial qatlarında qadın probleminin qoyuluşu araşdırılmış, mədəni mühitin ortaya çıxardığı qadın tipləri aydınlaşdırılmışdır.

Azərbaycan mədəniyyəti lap əzəldən gender sütunları üzərində ucalmışdı. Qoşa qanad uçmağa xidmət etdiyi kimi Azərbaycan mədəniyyətinin bir çox tarixi mərhələlərində "qadın-kişi cütlüyü" bədii əsərlərə qanad vermişdi. Bu qoşalığı əsərlərin adlarındakı binarlıqdan yaxşı görmək olar: "Xosrov və Şirin", "Leyli və Məcnun", "Vərqa və Gülşa", "Fərhad və Şirin", "Yusif və Züleyxa", "Əsli və Kərəm" və s. Faktiki olaraq bu gender cütlüyü şairlərin dünyanın əsasında necə qadın və kişi sütunlarının birliyini gördüklərini əyan edir. Biz deyə bilmərik ki, erməni və gürcü ədəbiyyatında analoji əsər bolluğu var. Yalnız Avropada "Romeo və

Cülyetta”, “Tristan və İzolda” kimi əsərlərdə Azərbaycan ədəbiyyatına paralellər görmək olar.

Dissertasiyada Nizami Gəncəvinin “İsgəndərnamə” poemasında hökmdar qadın Nüşabənin şahlığı timsalında alternativ femin sosial sistemini yaratmaq cəhdinə də münasibət bildirilmişdir. Fikrimizcə, Nizami və onun müasirlərinin mövcud cəmiyyətdən narazılığı öz tipinə görə tamam başqa cəmiyyəti modelləşdirmək marağını aşılamışdı. Bu, həm də ona görə mümkün olmuşdu ki, Azərbaycanda patriarxal mühit ülvi mədəniyyət səviyyəsində qadını idealdan, sayğıdan heç cür aşağı sala bilməmişdi. Qənaətimizə görə, Nizamidə kişilər dünyasına etiraz, bu dünyanın ədalətsiz sosial, siyasi qaydalarından narazılıq “başqasında ideal tapmaq” prinsipi üzrə utopik Bərdə şahlığını cazibədar örnəyə çevirir. Ümumiyyətlə, Azərbaycanda cəmiyyətin mövcud vəziyyətindən narazılıq ictimai naqisliklərin mücəssəməsi kimi qavranılan patriarxal (kişi) dünyasına qarşı həmin naqisliklərdən arınmış, arzulanan ideal cəmiyyət kimi təsəvvür olunan qadın dünyasını qoymağa gətirib çıxarmışdı. Bu vəziyyətdə toplumun qadın sütunu aktivləşərək, çoxlu qadın obrazını, tiplərini ortaya çıxarmışdı.

Biz orta əsr Azərbaycan mentalitetində Nüşabə və onun qadın əyanları timsalında Artemida arxetipinin transformasiyasını, Aişə, Fatimə timsallarında isə Demetra transformasiyalarını görürük. Onu da deyək ki, Artemida arxetipinin başqa yetirməsi “Kitab-i dədə Qorqud” da Banıçiçəkdir.

Tədqiqatda qeyd edilir ki, Azərbaycan mədəniyyətində qadın bütün növlərində önəmli mənalandırıcı məxluq, yəni semiozis həyata keçirən subyekt kimi nəzərə alınmışdı. Orta əsr poeziyasının mühüm qismi “afət” metaforasında verilən məşuqənin yaratdığı gərginliklər, narahatlıqlar üzərində qurulmuşdur. Məsələ onda idi ki, şəriət qadını heç cür şairi ilhama gətirən semantik zənginliyin mənbəyi ola bilməzdi. Onun sədaqəti, isməti heç bir qısqanclıq üçün şərait yaratmazdı, deməli, problem və hadisə törətməzdi. Müsəlman lirik təxəyyülünü poetik incilər yaratmağa təhrik etməyə qadir surət məhz “afət” idi. Maraqlıdır ki, məhz müsəlman poeziyasında Şəriət qadınının tipinə qarşı qoyulmuş xəyali lirik qadın bəlanı gözəlliyin sinoniminə çevirə bilmişdi. Ümumiyyətlə, klassik poeziyada qadın

gözəlliyi elə bir semantik durum törədir ki, kəskin əks-Şəriət aforizmini aktuallaşdırır.

Nəsimi yaradıcılığına da toxunulan tədqiqatda məşuqə şairin ekstatik şüurunda dünyanı da, dini də emosianallaşdıran, mənalarla semantikləşdirən əsas törədici başlanğıc, semiozis başlanğıcı kimi səciyyələndirilir. Füzulinin “Leyli və Məcnun”unda isə Leyliyə sevgi semiozis mənbəyi kimi dünya hadisələrinə xüsusi mənalar verərək, onları qəm, hüzr bucağından açır.

Ümumiyyətlə, klassik poeziyada məcnuni sevgi eşqin cismaniliyini arındıraraq, onun ünvanını sakral sferaya yönəldirdi. Belə bir sevgidə qadın da mistik anlamda qavranılan sakral-transsendental cizgilər və səciyyələr qazanırdı.

Arxetiplər nəzəriyyəsinə istinadla biz söyləyirik ki, Azərbaycan klassik poeziyasında “sənəm” (büt), “afət” (bəla) yunanların Afrodita, Afina kimi antipatriarxal Tanrıça arxetiplərinə uyğundur. Ümumiyyətlə, qadın klassik poeziyada kişiyə tabe olub onun evini, məişətini idarə edən zərif cins kimi yox, metafizik mahiyyətdə qarşımıza çıxır. Təsəvvüf poeziyasında qadının metafizikləşdirilməsi o həddə çatır ki, Allahın yaratdığı bütün gözəl dünyanın metagözəlliyi qadın gözəlliyində təmsil olunur. Təbiətin və hətta Allahın gözəlliyini vəsf etməyin verbal vasitələrini, simvollarını sanki məhz qadın gözəlliyi vermiş olur. Üstəlik, müsəlman poeiyası şəriət üçün nümunəvi sayılacaq kişi obrazını da əhəmiyyətli təftiş etmişdi: qadına olan sevgisindən iradəsini itirmiş, dünya kədərinə batmış, hətta Şeyx Sənan kimi dinini-imanını qurban vermiş aşiq əsla Şəriət idealının nəzərdə tutduğu kişi surəti deyildi.

Ümumiyyətlə, klassik poeziya gender planında təəccüblü konversiyalar sərgiləyir. Bir tərəfdən, aşiqin psixoloji portreti və hətta fiziki görünüşü feminləşir. Digər tərəfdən isə, şairələr sevgidən yazanda məhz aşiqlərin leksikonundan, metaforalarından istifadə edirlər. Təəccüblüsü isə odur ki, bütün bunlar şəriətin yaratdığı dünya modeli ilə dərin ziddiyyətə girir, lakin heç yerdə şəriətlə klassik poeziyanın açıq düşmənçiliyi, mübarizəsi qeydə alınmayır. Orta əsrlərdə şəriət və klassik poeziya qonşuluq, paralellik şəraitində yanaşı yaşayırdı.

XVIII – XIX əsrlərdə aşıq şeiri və poeziya Azərbaycan mentaliteti üçün yeni zaman koordinatları sistemində pozitiv olan qadın arxetipini tapmış oldu: məşuq və aşiqin hissləri yenə cismaniləşdi. Sovet dövründə isə nəsrə, şeirə şəriət qadını yox, Azərbaycan mentalitetinə uyğun qadın tipləri gəldi. Bu sənət üçün pozitiv qadınlar sadiq, ağıllı, abır-həyalı qızlar, bacılar, zövcələr və analar oldu (Demetra, Hestiya arxetipləri). Bu qadın tiplərinə qarşı paxıl, ara vuran, söz aparıb-söz gətirən vulqar qadın tipləri qoyulurdu. Sovet ideologiyası emansipasiya etmiş qadınların təbliğini ideoloji tapşırıq səviyyəsinə qaldırdı. Sovet emansipatorçu diskursunda heyrətamiz şəkildə modernist canatımlar ənənəviçiliyin pozitiv irsi üzərinə laylanırdı. Biz, hətta bu iki təmayülün özünəməxsus simbiozundan danışa bilərik. Bu mənada, artıq vurğuladığımız kimi, qadın keçmiş dini gender dünyasının müti və asılı durumundan qurtularaq, aktiv sosial başlanğıc kimi ictimai həyata cəlb edilirdi. Amma eyni zamanda o, post-əxlaq insanına da çevrilməyərək, ənənəvi cəmiyyətin ülvi etik sifətlərini daşımaqda davam edirdi.

Azərbaycan Sovet ədəbiyyatında realizmin təsiri ilə qadın portret və xasiyyət kanonikliyi xeyli dəyişikliyə uğradı, baş qəhrəmanlar sırasında qadının bulunmadığı roman və povestlər nadir bədii hadisələrə çevrildi. Beləcə, onlar ya müxtəlif davranışları ilə süjetə hərəkət istiqaməti verirdilər, ya da süjet onlara yeni davranış modellərini diktə edirdi. Bununla yanaşı, qeyd edilir ki, sovet dönəmində qadının emansipasiyası üçün xeyli hüquqi-sosial şərait yaradılsa da, ədəbiyyatda qadın problematikasının XX əsrin II yarısında Qərb feminist nəzəriyyələrə xas qoyuluşu və əhatə genişliyi yox idi. Sovet Azərbaycanında dövlət və mədəniyyət səviyyəsində qadın azadlığı uğrunda nə qədər ciddi işlər görülsə də, patriarxal qalıqları tam şəkildə aradan götürmək mümkün olmamışdı, ona görə ədəbiyyat da onlardan yan keçmirdi. 1960-cı illər ədəbiyyatı plakatçılıqdan çıxarmaq üçün psixologizmə xüsusi diqqət yetirir. O dönəmdə qadın surəti istər psixoloji, istərsə də xarakterinin rəngarəngliyi baxımdan xeyli zənginləşir. Anarın “Ağ liman”, “Beş mərətbəli evin altıncı mərtəbəsi” əsərlərində avropalaşmış, fəqət

milli identikliyini və ləyaqətini itirməmiş Təhminə femin düşüncələri üçün yeni nümunə olur.

Yeni Azərbaycan ədəbiyyatında Təhminədən sonra femin rakursunda növbəti dalğa XX əsrin sonlarında başlayaraq, XXI əsrdə vüsət aldı. Bu dövrdə ən maraqlı proses qadın yazarlar dəstəsində baş verdi. Ora Günel Mövlud, Günel Anarqızı, Sevinc Pərvanə, Nərmin Kamal, Nuridə Atəş kimi simalar daxil oldu. Ancaq etiraf etməliyik ki, XXI əsrdə Azərbaycan incəsənətində yeni nəsil qadın mövzusunda xeyli cürətlənərək, öncələr toxunulmamış aspektlərə maraq göstərsə də, bu zaman diskursunu müəyyən dərəcədə müasirləşdirsə də, incə psixoloji araşdırmalar həyata keçirməyə onun gücü çatmadı.

İkinci yarımfəsil **"Müasir Azərbaycan elmində qadın problemləri üzrə tədqiqatların metodoloji perspektivləri"** adlanır və Vətən genderşünaslığının keşdiyi yol və elmi-nəzəri imkanları araşdırlır. Bu zaman sözügedən sahədə mövcud problemlər də xülasə edilir.

İlk növbədə qeyd edilir ki, qloballaşma dünya miqyasında təkcə informasiya axınının geniş və asan, müqavimətsiz yayılması deyil, o həmçinin geyim, estetik və intellektual dəyərlərin moda prinsipində yayılmasıdır. Bu vəziyyətdə qabağa çıxmış millətlərin, sivilizasiyanın elmi yenilikləri cazibədarlıq prinsipi üzrə geridə qalanlar üçün təkanverici töhfə funksiyasını daşıyır. Bu zaman biz belə bir müddəadan çıxış edirik ki, qadın azadlığı və haqları Azərbaycanda tam şəkildə mədəniyyətin daxili tərəqqisinin nəticəsi deyildi. Zira mədəniyyətin iqtisadi və başqa institual komponentləri heç qadın işçi qüvvəsinə, qadın intellektual resurslarına tələbat da yaratmamışdı ki, Avropadakı kimi femin emansipasiyasına çağırış formalaşsın. Nəzərə alınmalıdır ki, Azərbaycanda müasirləşmə ideoloqlarının təbliğ etdiyi Avropaçılıq təkcə həyat tərzi ilə bağlı deyildi. Onlar həm də Avropasayağı rasionalizmi, nəzəriyyələri, maarifçi paradiqmaları məmləkətlərində intellektual dəbə çevirmişdilər. Bu məsələdə Parisdə təhsil alıb yaşamış, beləcə, Paris mühitində alim və publisist kimi formalaşmış Ağaoğlunun xüsusi rolu olmuşdu. Beləliklə, XIX əsrdən başlayaraq Azərbaycanda femin problemlərə maraq ümumi müasirləşmə və ya avropalaşma prosesləri

çərçivəsində başlamış, Avropadan elmi təsirlənmə isə qadınlarla bağlı elmi ideyalarla tanışlığı artırmışdı.

Azərbaycan elmində müstəqillik dövrünün ilk illərinə qədər sosialist feminizmə xas antipatriarxal qəzəb hərtərəfli öz nəticələrini vermişdi. Hətta bu nətiəcələr sənətdə qadına qarşı zülmü ifşa etməyə həsr olunmuş əsərlər ortaya çıxarandan bəri ədəbi tənqiddə öz mövzusunu yaratmışdı. Beləcə, tənqid və ədəbiyyatşünaslıq Azərbaycan ədəbiyyatında qadın surətini, qadına qarşı zülmün təsviri problemlərini ayrıca diqqət fokusuna götürmüşdü. Bu zaman etiraf olunmalıdır ki, Sovet ideologiyasında milli özünəməxsusluqlar heç də təhlükəli ideoloji yanılma kimi rədd edilmirdi; milli biganəlik hətta “kosmopolitizm” adı altında burjua xisləti elan edilmişdi. Sovet mədəniyyətinin ən müxtəlif sahələri, o cümlədən ədəbiyyat, incəsənət “formaca milli, məzmunca sosialist” prinsipi əsasında fəaliyyət göstərirdi ki, bu da milliliklə beynəlmiləlliyin vəhdətini nəzərdə tuturdu. Bununla yanaşı, Azərbaycan Sovet elmində və mədəniyyətində lap əzəldən milliliyin yanına “millətçilik” xəbərdarlığı da yer almışdı. Bu xəbərdarlığı “burjua” epiteti daha da qalmaqallı edirdi. Ona görə də millilik beynəlmiləlliyin qoyduğu çərçivədən kənara çıxmamalı idi. Əgər bu tezisi femin və ya gender müstəvisinə keçirsək, belə alınırdı: konkret azərbaycanlı qadınına olan zülm və ya qadının bu zülmlə mübarizəsi araşdırılanda zülmün və zülmə qarşı mübarizənin sinfi aspektini bioloji və ya irrasional aspektlərlə əvəz etmək olmazdı. Sovet elmi mühitində həmçinin qadın dünyasının sinfi mübarizə, sosial və mədəni zülm kontekstindən kənarda, sadəcə elm xatirinə öyrənilməsi səyləri də “burjua feminizmi”nin təzahürü kimi pislənilirdi. Ona görə də Qərbdən fərqli olaraq sovet milli respublikalarının elmində qadınlarla marksist-leninist kanonlar xaricində cürətli ideyalar özlərinə çətinliklə yol açırdı. Azərbaycan elmi belə imkanları qismən yalnız 1980-ci illərin II yarısında, Aşkarlıq dönəmində, tam şəkildə isə Müstəqillik dövründə qazandı. Azərbaycan sovet elmi müstəqillik dövrü üçün güclü bilik bazasını yaratmışdı. Ona görə də qloballaşma havası ilə gələn gender toxumları Azərbaycan zəminində asanlıqla cücərti verməyə başladı. Ötən əsrin 90-cı illərinin təxminən ikinci yarısında Azərbaycanda genderşünaslıq ilk addımlarını atmağa

başladı. 1998-ci ildən bu işdə AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun "Fəlsəfənin yeni istiqamətləri və gender tədqiqatları" şöbəsinin böyük rolu oldu. Zümrüd Quluzadə, Əli Abasov, Rəna Mirzəzadə, Yelena Qasımova kimi bir çox genderşünasların məqalələri yeni ideya, yeni baxış rakursları üçün gender paradiqmalarından bəhrələnməyin bu və ya başqa dərəcədə tutarlı nümunələrini mədəniyyətə bəxş etdilər. Bunun nəticəsidir ki, müasir dövrdə mədəniyyətimizdə doğrudan da qadın fenomeni gender paradiqmaları sistemində yeni düşüncə istiqamətləri verən əsaslardan birinə çevrilmişdir. Bəhs etdiyimiz illərdə həmçinin qadın haqları və problemləri ilə bağlı çoxsaylı QHT-lər yaranaraq müxtəlif proqramlar həyata keçirdilər.

Yarımfəsildə ölkəmizdə həyata keçirilən gender araşdırmalarının mühüm nöqsanları da qeyd edilir. Məsələn, çox vaxt bu cür araşdırmalar adı altında cinlərarası münasibətlər deyil, sırf qadınların müxtəlif problemlərinin tədqiqatları nəzərdə tutulurdu. Başqa sözlə, genderşünaslıq feminizmin (qadınşünaslığın) sinonimi kimi çıxış edirdi. Halbuki gender nəzəriyyələri mədəniyyəti və dünyanı tədqiq edəndə insanı kişi, yaxud qadın qiyafəsində yox, məhz qadın və kişi vəhdətində götürür. Bizdə isə yalnız bəzi tədqiqatlarda kişi fenomeninə də toxunulur, özü də çox vaxt müəllif kişi və ya qadın haqqında ümumi təsəvvürlərdən kənara çıxa bilmir.

Azərbaycanda gender tədqiqatlarının bir başqa çatışmazlığı ondadır ki, müəlliflər gözdən keçirdikləri materiallarda daha çox identifikasiya aktı ilə femin və kişi-qadın münasibətlərinin problemlərini tapıb üzə çıxarırlar, ancaq bərpa, dekonstruksiya prinsipində daha dərin laylara enmirlər.

Bizim gender araşdırmalarında qadın azadlıqlarını prioritetə çevirmiş mədəniyyətlərdə baş vermiş fəsadlar öyrənilmir. Deməli, həmin səhvləri təkrar etməmək üçün nəyin qarşısının alınması, nə kimi tədbirlər görülməsi də aşkar edilmir. Bu nöqsan ölkəmizdə genderşünaslığı xeyli qeyri-praktik edir. Azərbaycan genderşünasları qadın azadlıqlarının genişlənməsinin milli mədəniyyətimizə hansı situasiyalar, hansı sınaqlar gətirəcəyini modelləşdirsələr, onların tədqiqatları xüsusi dəyər qazanar.

Dövrümüzdə gender münasibətlərində götürülmüş gənclərlə bağlı ideal boşluğu var. Bununla əlaqədar Azərbaycanda gender tədqiqatlarının “bizi gələcəkdə nələr gözləyir” sualına cavab verməkdə acizliyi ilə bağlı başqa ciddi nöqsanı ortaya çıxır. Sözügedən problematika ilə məşğul olan müasir Azərbacan nəzəriyyəçiləri tələb olunan gələcəyin obrazını yaratmaqda acizlik göstərirlər.

Göstərilir ki, bəzi tədqiqatların əsas məqsədi insan haqlarının (hansıları ki, Modern çağı xeyli sonralar – XIX və XX əsrlərdə təsbit etdi) əzəldən İslam mühitinə məxsusluğu tezisinin müdafiəsidir. Belə bir müddəa islam islahatçılığı cərəyanına tam uyğun gəlməklə, əhəmiyyətli dərəcədə islamın arxaik və açıq patriarxal yönəlişliklərini aradan qaldırmaq, yaxud da yumşaltmaq istəyi ilə əlaqəlidir. Ancaq qeyd etməliyik ki, Azərbaycan ilahiyyatçıları arasında insan haqlarının İslam dini ilə uzlaşdırmağa çalışanların sayı çox deyil.

Yarımfəsildə Azərbaycanda gender və femin tədqiqatların cığıraçanlarından olan professor Əli Abasovun bəzi nəzir mühakimələri təhlil edilmişdir. Əli Abasovun mülahizələrindən görünür ki, o, kişinin gender sistemində qadının güclü təsiri ilə aqressivlik, hegemonluq kimi mənfi iddialardan təmizlənməsinə ümid edir və bu mənada proqnoz verir ki, gender nəticəsində “normallaşmış” və qadınla “sinxronlaşmış” kişinin yeni tipli mədəniyyət və dünyagörüşü, elmi təfəkkür üçün təhlükəsi olmayacaq. Bu mənada gender elmə yeni nəfəs gətirəcək.

Son zamanlar femin araşdırmalarında yeni olan odur ki, bütün önəmli mədəniyyət hadisələrində gender prizmasından görünən qadın həm semiozisin dalğalandığı başlanğıc kimi, həm mədəniyyətin yeni modellərini diktə edən varlıq kimi, həm də feminizm təhlükəsini simvolizə edən aqressiv, qorxulu subyekt kimi düşünülməyə başlanılmışdır.

XXI əsrin ötən illərində feminizmin güclənməsi və gender paradiqmalarının yayılması, gender ideyalarının mətbuatda populyarlaşması antifeminist fikirlərə də bir növ rəvac vermişdir. Sabirin poeziyasında antifeminist fikirlər mövhumatçı personajların dilindən çıxırdı. XXI əsrdə isə sanki feminist ideyaların

populyarlaşması bu fikir axınının antipodu olan və onunla polemikaya girən intellektuallar doğurdu. Ötən əsrdə müasirləşmə, daha sonra sovet ideologiyasında qadına verilən dəyərin təsiri altında formalaşmış sayğı total idi, ona görə də qadınsevməzlik diskurslarını bədii əsərlərdə mənfi personajlar səsləndirərdi. Həyatda isə bu deyimlər mühafizəkar, mürtəce baxışlı kişilərin arasında dövriyyədə olardı. XXI əsrdə qadınlarla bağlı antifeminist deyimlər birdən-birə özünü mütərəqqi, demokratik adamlar kimi təqdim edənlərin dilindən səslənməyə başladı.

Dissertasiyanın sonunda qeyd edilir ki, XXI əsrin əvvəllərində femin araşdırmalarının nə qədər nöqsanlarından danışsaq da, söyləməliyik ki, qadının semiozis mənbəyi, mədəniyyət modelinin önəmli amili olmasından doğan fikirlər, ideyalar müasir Azərbaycan mədəniyyətinin ən müxtəlif sahələrində yayılaraq onu məhz XXI əsrin mədəniyyəti edə bilmişdi. Yeni əsrin Azərbaycan mədəniyyəti və femin düşüncələri həm elmdə, həm də praktikada XX əsrdən xeyli irəli çıxmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqata yekun vurulur, genderşünaslığın və feminologiyanın tədqiqat boyu təhlil etdiyimiz ümumi müddəaları xülasə olunur, semiotik proseslərdə mədəniyyətin generativ funksiyası səciyyələndirilir, XX-XXI əsrin müxtəlif elmi paradiqmaları işığında qadın psixologiyasının kulturoloji təhlilindən irəli gələn nəticələr açıqlanır, Azərbaycan mədəniyyətində qadın fenomeninin ümumi təzahür formaları göstərilir, müasir Azərbaycan elmində qadın və gender tədqiqatlarına dair ümumi nəticələr verilir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Mədəniyyətdə dinamika və generativ semantik proseslər. Beynəlxalq konfrans materialları// "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf. - Təknur. – Baku. XXVI. – pp 388-391.

2. Mədəniyyətin sərhəd dəyişmələrində qadın fenomeninin rolu. Mədəniyyət dünyası, ADMİU. – Bakı. – 2013. – XXVI burax. –pp.32-37.

3. Şəriət dünyasının qadını və klassik poeziya qadını. –ADMİU. – Bakı. – 2013. – XXX burax. – pp 14-19.

4. Gender və mədəniyyət (proqram). Bakı. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 29.05.2014-cü il tarixli 658 saylı əmri ilə təsdiq edilmişdir. – 2015. – 18 p.

5. Qadın problemlərinin kulturoloji araşdırmaları. Beynəlxalq konfrans materialları// Peoples of Eurasia: History, culture and interaction problems. Materials of the VI international scientifik conferense on Praque, April 5-6, 2016, – pp.88-92.

6. Universal və milli ənənələrin dəyişən proyeksiyalarında qadın semiozisi. Sənət Akademiyası, – Bakı. – 2016, №1(1). – pp.160-164.

7. Mədəni situasiya və gender problemləri. – ŞÖMBA. – Bakı. – 2016, №1(1). –pp. 228-234.

8. Tarixi prosesdə türksoylu dövlətlərdə qadının yeri və rolu// I Türkoloji Qurultayın 90- illik yubileyinə həsr olunur //XV beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı. – 2016. – pp.316-319.

9. Ortak kültürel degerlerin gelişimində Azerbaycan ve Türkiye kadınlarının rolu ve yeri. Akademik Sosyal Araştırmalar Dergisi, Turkey. – 2016. 4-Sayı 27. – pp.76-82

10. Qadın və kişi münasibətlərində makro və mikrokosm proyeksiyaları. ŞÖMBA, – Bakı. 2016 №2 (12). – pp.133-140.

11. Kültürden yansiyan gender (cinsiyet) dünyası. Akademik Sosyal Araştırmalar Dergisi, Turkey. –2016. 4-Sayı 35. – pp.114-120.

12. Azərbaycan mədəniyyətində qadın fenomeninin mədəni müxtəlifliyi// Multikulturalizmkonsepsiyasının sosial-fəlsəfi və mədəni əsasları”mövzusunda respublika elmi-nəzəri konfransın materialları. –Bakı. – 2016. – pp. 30-33.

13. Kültürün gelişmesinde Azerbaycan ve Türkiye kadınlarının rolü. Türk dünyasında kadın algısı. Manisa Celal Bayar Üniversitesi Yayınları, Manisa. – 2016. – Yayın No: 0017. – pp. 597-603.

14. Karl Yunqun arxetiplər nəzəriyyəsinin Jan Şinoda Bolen tərəfindən tətbiqi. Mədəniyyət dünyası, – ADMİU, XXXII burax. – Bakı. – 2016. – Pp.6-12

15. Feminist qadınının psixoloji portreti// Müqayisəli ədəbiyyatşnaslığın aktual problemləri elmi-nəzəri konfransın materialları, – Bakı. – 2017. – Pp.227-233.

16. Qadın kulturoloji fenomen kimi və "contradiction in contrarium" metodu. – ŞÖMBA, – Bakı. – 2017. – pp134-141.

17. Azərbaycan mədəniyyətində qadın fenomeninin təzahür müxtəlifliyi. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi. – 2017. XVI. – Pp.255.269.

18. Ailə və ailə həyatı - feminist baxışlarda. Qobustan, "Sənət toplusu", – Bakı. – 2017, № 1. – Pp.70-73.

19. Ermənistan Azərbaycana qarşı hərbi təcavüzü zamanı əsir və itkin düşən, ağır işgəncələrə məruz qalan və öldürülən qadınlar barədə// Qafqazşünasların I Beynəlxalq Forumu, – 16-17 April. – Bakı. – 2017. – Pp.107-112.

20. Müxtəlif mədəniyyətlərdə qadına münasibət. Mədəniyyətaz. Jurnalı, – Bakı. – 2017. may-iyun (313). – Pp.66-69.

21. Müasir Azərbaycanda qadın fenomeni tədqiqatlarının metodoloji araşdırmaları. Elmi əsərlər ADMİU. – 2017, № 23. – Pp.6-14.

22. İctimai fikir tarixində qadına münasibət. Sənət Akademiyası –Bakı, № 13. –2017. – Pp.73-80.

23. Проблемы нравственности в современной культуре// I международная научно-практическая конференция «Духовность и современная культура. Истоки, вызовы, преспективы». Санкт-Петербург. –2017, 24 марта –.pp. 140-148.

24. Из истории психоанализа женщин и его культурологическое. Наукові записки Тернопільського національного педагогічного університету імені Володимира Гнатюка, Тернопіль. – Випуск 37. – 2017. – Pp.236-242.

25. Azərbaycan tarixində ilk qadın təşkilatı-Bacılar. Sivilizasiya jurnalı, –Bakı Avrasiya Universitetinin nəşri. – cild 6, № 3. – Baku. –2017. – pp.12-17.

26. Elm və irfan sahibi olan Azərbaycan qadınlarının mədəni fəaliyyətinə tarixi baxış. Gənc alimlərin əsərləri, – Bakı. – 2017, № 15. – Pp.122-127.

27. Gender problematikasının Azərbaycan kulturologiyasında yeri// Gender Problemi və Müasir Azərbaycan" respublika elmi

konfransının materialları. Azərbaycan Universiteti. – Bakı. – 2017. 25 Noyabr, – pp141-146

28. Kulturoloji düşüncənin matriarxat və patriarxat tipinə görə təhlili. Gənc alimlərin əsərləri. – Bakı. – 2017, № 16. – Pp.97-102.

29. Гендерный мир сквозь призму культуру. Українська культура минуле сучасне шляхи розвитку науковий збıрник. Напрям:Культурологія. – Випуск 25. – 2017. – Pp.104-107.

30. Parmenidin məntiqi düşüncələrindən gender münasibətlərinə baxış. Turizm və qonaqpərvərlik tədqiqatları (Tourism and hospitality studies) Beynəlxalq jurnal. – Bakı. – 2018. – 7/say 1 – Pp.223-229.

31. Azərbaycan mədəniyyətində qadın fenomeni. Monoqrafiya ADMİU-nun mətbəəsi. – Bakı. – 2018. – 276 p.

32. Gender dünyası mədəniyyətin müxtəlif modellərində. Monoqrafiya, "Azbuki" nəşriyyatı. – Bolqariya. – 2018. – 64 p.

33. Qadın psixologiyasında feminizm rezonansı. Qərbi Kaspi Universiteti Elmi xəbərlər ictimai və texniki elmlər seriyası. –2018, № 1. – Pp.158-164.

34. Женщина в культурно-социальном контексте различных обществ// Диалог двух культур востока и запада через призму единства и многообразия: древний мир, средневековье, новое и новейшее время, – Алматы, Екатеринбург, – 2018, 30 марта. – pp.19-25.

35. Моральна криза і порятунок жінок (The moral crisis and salvation of women). –Культура Украіни (Cultur of Ukraıne) Збıрник наукових праць (Scientific Journal) Харків, ХДАК. – 2018, № 60. –pp.125-133.

36. Культурный феминизм и материальной право. Казахский Национальный Университет имени Аль-Фараби Вестник. серия философии, серия культурологии, серия политологии. – 2019, № 4(70). – Pp.28-35.

37. Роль женщины в современной культуре Азербайджана. Молодий вчении. – 2020, № 3(79). – Pp.79-84.

38. Гендерные отношение социокультурном плане в Азербайджане. Вопросы истории. – 2020. – 5 (2). – Pp.170-177.

39. Nizami Gəncəvi yaradıcılığında gender münasibətləri// N.Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – Bakı. – 2021, 25-27 noyabr. – Pp.225-226

40. Культурологический аспект женского мира в семиотике. Вестник АГУ. – 2021. – 4 (289). – Pp.205-213.

41. Концепт «женщина» в мировой культуре. Traektoriâ Nauki = Path of Science. – Vol. 8, No 1. – 2022. – Pp.6001-6005

42. The embodiment of the feminine issue in cultural models. Ad Alta Journal of interdisciplinary research. – 2022. – 12/01-xxv. – Pp.298-302.

43. Воплощение женского вопроса в культурных моделях. Современная наука: актуальные проблемы теории и практики. Серия: Познание. –2022, № 4. – Pp. 6-11.

44. Scientometrics analysis of the academic activities of the Azerbaijan State University of Culture and Arts in 2021-2023 (Some specific features of the activity). Журнал социальных наук Technium (ISSN: 2668-7798). –2022. – Vol.35. – pp.224-231.

Dissertasiyanın müdafiəsi 24 yanvar 2025-ci il tarixində saat 11 Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya şurasının bazasında qeydiyyat nömrəsi BED 2.35 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1065, Bakı şəhəri, Yasamal r/nu, İnşaatçılar prospekti, 39.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  18.12.2024

Kağızın formatı: A5

Həcm:  93774

Tiraj:  100